# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 51 (3375) | Şənbə / 22-24 may 2021-ci il | Qiyməti 40 qəpik


MÜSAHİB

## Qədim Alban dilini necə öyrənək?



**Ramin Əlizadə,**
AMEA Tarix İnstitutunun böyük elmi işçisi, albanşünas alim

***Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban Kilsəsini ziyarət edərkən albanşünaslıq tarixinin araşdırılması və inkişafı ilə bağlı verdiyi tövsiyələr Azərbaycan alimlərinin qarşısında yeni tələblər qoyub. Alban abidələrinin Azərbaycanın böyük bir tarixi irsi, mirası kimi tədqiq olunması erməni yalanlarının ifşası və dünyaya təqdim olunması baxımından əhəmiyyətli və vacibdir.***

*Alban Mərkəzinin rəsmi olaraq fəaliyyət göstərməsi barədə internetdə də heç bir məlumat verilmir*

Səh. 3

# Yeni informasiya strategiyası





## "Yol xəritəsi" necə cızılır?

**Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev yenidən ölkəmizi, bölgəmizi yaxından maraqlandıran bir çox məsələlərlə bağlı məsələlərə dair mövqeyini açıqladı. Özü də bu bəyanatlar keçmiş prezidentlər, diplomatlar, siyasətçiləri özündə cəmləyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi kimi bir platforma çərçivəsində səsləndirildi. Mərkəzdə təmsil olunan şəxslərin kimliklərinə diqqət yetirək: Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin, Latviya Respublikasının sabiq Prezidenti Vayra Vike-Freyberqa, Ağ evdə 2005-2007-ci illərdə ABŞ-ın Milli Təhlükəsizlik Şurasında Cənubi və Mərkəzi Asiya Məsələləri üzrə direktor, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə sabiq köməkçisi və Nazarbayev Universitetinin İdarə Heyətinin üzvü Deyvid Merkel, 2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini, 2008-ci ildə Gürcüstanın xarici işlər naziri olmuş xanım Eka Tkeşelaşvili, 2002-2010-cu illərdə İsrailin xarici işlər naziri olmuş Tzipi Livni,2005-2010-cu illərdə Ukraynanın Prezidenti olmuş Viktor Yuşşenko...**

Bu siyahı kifayət qədər genişdir. Özü də "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələr illərdir dünya siyasətində iz qoymuş bu şəxslərin dövlət başçımızla birbaşa sual-cavab kontekstində aparılıb. Ümumiyyətlə, istər 44 günlük müharibə dövründə, istərsə də post-müharibə mərhələsində Prezident İlham Əliyevin dünyanın 26 aparıcı mediasına verdiyi müsahibələr, yerli və xarici media nümayəndələri üçün keçirilən mətbuat konfransında media qurumlarının çoxlu sayda sualını cavablandırması, ayrı-ayrı tədbirlərdəki çıxışları və bəyanatları ölkənin yeni informasiya strategiyası çərçivəsində şərh olunur.

Yeni informasiya strategiyası Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərksilah edilməsi, regionda və dünyada baş verən mühüm proseslərə dair Azərbaycanın mövqeyini ifadə edən müvafiq mesajların daha effektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırılması, postkonflikt dövrdə regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı, bunun mənəvi və hüquqi nəticələri barədə dünyaya geniş məlumatların verilməsi aspektində birmənalı qarşılanır.

***Yeni İnformasiya strategiyası ətrafında mövcud vəziyyəti "hafta.az-a şərh edən ekspertlər mühüm amilləri önə çəkiblər.***

*- Müharibə vaxtı baş verənlər ədalətin qələbəsi idi;*

*- Ermənistan tərəfindən siyasi iradə olsa, sülh sazişi mümkündür;*

*- Erməni siyasətçilərin Nizami Mərkəzinin tədbir və müzakirələrində iştirakı prinsipcə mümkündür;*

*- Ermənilər yalnız keçmişdən danışır, biz isə gələcək haqqında düşünürük;*

*- İşğaldan azad olunmuş şəhərlərin baş planları hazırlanıb;*

*- Ermənistan cəmiyyəti öz liderlərindən başqa heç kimi günahlandırmamalıdır;*

*- Bu gün "azərbaycanlı" erməni siyasi lüğətində ən pis təhqirdir;*

*- Ermənistan saxlanılan 14 hərbçini könüllü şəkildə azad etdiyimizə görə bizə təşəkkür belə etmədi;*

*- Cənubi Qafqaz regionunda yaranmış yeni vəziyyət yeni yanaşmalar tələb edir;*

*- ABŞ Azərbaycanın həyata keçirdiyi enerji layihələrini və digər layihələri daim dəstəkləyib;*

*- Avropa İttifaqı post-münaqişə dövründə regional əməkdaşlığın inkişafında mühüm rol oynaya bilər;*

*- İsrail və Azərbaycan diasporları münasibətlərimizin inkişafına mühüm töhfələr verir;*



**Elşad Mirbəşir,**
Milli Məclisin deputatı

- Bütün fəaliyyət istiqamətlərində uğur qazanamaq üçün mütləq onun informasiya əsası olmalıdır. "Əgər informasiyaya maliksənsə, informasiyaya sahibsənsə, deməli, silahlısan, güclüsən" - məşhur yanaşmanı xatırlayaq.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hərbi müstəvidə olduğu kimi, informasiya sahəsində də dövlətimizin sərkərdəsi rolunda çıxış etdi və etməkdədir.

Qeyd etmək lazımdır ki, Prezident Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük fədakarlıq göstərdi. Çox vacib məqam ondan ibarətdir ki, son dövrlərə qədər dünya ictimaiyyəti artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qeyri-obyektiv mövqe sərgiləyirdi. Prezidentin gərgin əməyi, fəaliyyəti nəticəsində vəziyyət köklü şəkildə ölkəmizin xeyrinə dəyişdi.

Səh. 2

XÜSUSİ MÜXBİR



**Oqtay Bayramov,**
AZƏRTAC-ın Şimali Afrika və Yaxın Şərq ölkələri üzrə xüsusi müxbiri

■ Ermənilərin məscidləri dağıtması ərəb ölkələrində böyük rezonans yaratdı...

■ Onların qəzetləri, kilsələri fəaliyyət göstərir, ermənilər dövlət orqanlarında təmsil olunurlar...

■ Misir ziyalıları, mədəniyyət xadimləri Azərbaycanı kifayət qədər yaxşı tanıyırlar...

Səh. 6

GÜNÜN FOTOSU...



"Qarabağ"ın futbolçusu medalını şəhid məzarından asdı...

GÜNÜN SİTATI

*"Təəssüf ki, hələ də Ermənistan tərəfindən 10 Noyabr tarixli bəyanatdan və ümumilikdə, beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinin pozulmasının şahidiyik"*



**Ceyhun Bayramov,**
Xarici İşlər naziri

KARİKATURA




Toylarla bağlı yeni qaydalar hazırlanır...

## "Azərbaycanfilm" müharibəyə dair filmlər hazırlayır

**Fariz Əhmədov,**
Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının baş direktoru

Yeni kino siyasətində beynəlxalq film şirkətləri ilə müştərək istehsala olduqca əhəmiyyət verilir.

Səh. 5

STATİSTİKA



**■ Sumqayıtda yaşayan əhalinin sayı açıqlanıb. 2021-ci ilin aprel ayının 1-nə Sumqayıt şəhər əhalisi 346,7 min nəfər olub.**

Bu göstəricilərə əsasən, Sumqayıt şəhərində 309,4 min nəfər, Hacı Zeynalabdin Tağıyev qəsəbəsində 23,6 min nəfər, Corat qəsəbəsində isə 13,7 min nəfər əhali yaşayır. Bu rəqəm 2020- ci ilin müvafiq dövrü ilə müqayisədə 1100 nəfər və ya 0,3 faiz artıb.



Səh. 4

## Çoxuşaqlı ailələr

PREZİDENTİN İŞ GÜNÜ

## Britaniya şirkətləri ilə əməkdaşlığı genişləndirmək istəyirik



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Böyük Britaniyanın ixracat naziri Qraham Styuartı qəbul edib. Britaniyalı naziri salamlayan Prezident İlham Əliyev deyib:**

- Əminəm ki, komissiyanın gündəliyi çox genişdir, çünki siz birlikdə çoxlu işlər görməlisiniz. Əminəm ki, sizin səfəriniz planlarımızın icrasında və yeni tədbirlərin planlaşdırılmasında çox önəmli bir addım olacaqdır.

Əlbəttə ki, səfər uğurla inkişaf edən ikitərəfli əlaqələrimizi hətta daha da gücləndirəcəkdir. Sizin bildiyiniz kimi, mən dəfələrlə Birləşmiş Krallıqda olmuşam.

Sonuncu səfərim üç il bundan əvvələ təsadüf edib. Onda o vaxtkı Baş nazir xanım Mey ilə görüşmüşdüm və çox yaxşı müzakirəmiz olmuşdur. Bundan sonra pandemiyaya baxmayaraq münasibətlər çox fəal fazada idi. Beləliklə, bu ilin fevral ayında biz nazir xanım Mortonu qəbul etdik. Onunla da yaxşı söhbətimiz oldu. İndi siz səfər edirsiniz. Bütün bunlar çox fəal siyasi dialoqu və iqtisadi sahədə böyük perspektivləri nümayiş etdirir.

Sizin Azərbaycana gəlişinizdən əvvəl məlumatlara nəzər saldım və gördüm ki, Birləşmiş Krallıqdan Azərbaycana 30 milyard dollardan çox investisiya yatırılıb. Bu, həqiqətən də çoxdur. Bu, bizim inkişafımıza kömək edib. Bu, bizə nəinki təkcə neft və qaz sənayesini inkişaf etdirməyə kömək edir, eyni zamanda, ümumi inkişafımıza kömək edir. Çünki, bu investisiya bizim büdcəmizə daxil olan və qeyri-neft sahələrinə təkrar investisiya kimi yatırdığımız gəlirlərə gətirib çıxarmışdır. Bu gün əməkdaşlıq çox fəal şəkildə davam edir. BP 30 il ərzində və ən azından bundan sonra da 30 il ərzində bizim strateji tərəfdaşımızdır, çünki yeni perspektivlər var, yeni müqavilələr imzalanıb.

Sizin bildiyiniz kimi, həm BP, həm də Azərbaycan bərpa olunan enerji mənbələri üzərində fəal çalışırlar. Bu yaxınlarda nazirimiz mənə məlumat verib ki, işğaldan azad olunmuş ərazilərdə günəş enerjisinin istehsalına investisiya yatırmaq planı var. Xüsusilə Qarabağın işğaldan azad olunmuş ərazilərini "yaşıl zona" və "ağıllı şəhər" elan etdiyimizi nəzərə alsaq, bu, bizim üçün çox faydalı olacaqdır. Eyni zamanda, qeyd etmək istəyirəm ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində bizimlə işləmək üçün ilk əcnəbi şirkətlər sırasında Britaniya şirkətlərini də tərəfdaşlarımız qismində dəvət etmişik və bu proses artıq başlayıb.

Artıq şəhərlərin baş planları hazırlanmışdır və biz çox fəal fazadayıq. Biz dost ölkə olan Britaniya şirkətləri ilə əməkdaşlığı genişləndirmək istəyirik. Əminəm ki, komissiyanın iclası zamanı bu məsələ də müzakirə olunacaqdır. Beləliklə, bizim ikitərəfli əməkdaşlığımızın həqiqətən də geniş gündəliyi var. Bir daha Azərbaycana xoş gəlmisiniz.

**Böyük Britaniyanın ixracat naziri Qraham Styuart dedi:**

- Zati-aliləri, məni səmimi qarşıladığınız üçün, çox sağ olun. Burada olmaq çox xoşdur. Birləşmiş Krallıq, Sizin də bildiyiniz kimi, Azərbaycanın uzunmüddətli tərəfdaşıdır və ölkənizin suverenliyini, müstəqilliyini müdafiə edir. Biz bu uzun illər ərzində Azərbaycanın tərəfdaşı olmaqdan məmnunluq və şərəf hissi duyuruq. Bizi, həmçinin bir çox məsələlər maraqlandırır. Lakin, mən bunlardan ikisini seçərdim. Birincisi, Birləşmiş Krallığın da sadiq olduğu, Sizin daha da yaşıl və dayanıqlı gələcəyə dair baxışınızdır. Hesab edirəm ki, Azərbaycanın nəinki təkcə uğurlu neft və qaz iqtisadiyyatına malik olan ölkə, eləcə də, gələcəyi düşünən və uzunmüddətli perspektivdə strateji planlar quran bir ölkə olmasını təmin etmək Sizin baxışınıza uyğundur. Çünki, gələcək daha da yaşıl olacaq, qlobal investisiyalar bu sahəyə yatırılacaq və münasibətlərimizi dərinləşdirmək üçün fürsət olacaq.

Sizin də qeyd etdiyiniz kimi, BP strateji tərəfdaşınızdır, orada böyük imkanlar var. Düzgün siyasət və tədbirlər müəyyənləşdirməklə, Sizin ölkəniz üçün uzunmüddətli mirasınız ondan ibarətdir ki, Siz ölkənizi neft və qaz əsasında qurub inkişaf etdirmisiniz, lakin, eyni zamanda, gələcəyə də baxırsınız.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Yeni informasiya strategiyası



## Aktual

əvvəli 1-ci səhifədə

Son illər demək olar ki, bütün beynəlxalq platformalarda münaqişənin tənzimlənməsi yolunun məhz Azərbaycanın ərazi bütövlüyündən keçməsi məsələsi qabardılırdı. Bu, Azərbaycan Prezidentinin formalaşmış olduğu siyasi reallıq idi. Təbii ki, bu informasiya mübarizəsində də bizim çox böyük strateji qələbəmiz idi. Dünya artıq Azərbaycanın haqlı mövqelərini qəbul edirdi və eyni zamanda da bununla barışırdı. Bildiyiniz kimi, dünya erməniçiliyi həqiqətlərin təhrif edilməsi istiqamətində intensiv fəaliyyət göstərib. Dünyanın çaşdırılması onların maraqlarına cavab verən nəticələrə də gətirib çıxarırdı.

Azərbaycan Prezidenti bu reallığı köklü şəkildə dəyişdi. Hücum diplomatiyası strategiyasının mühüm komponentini məhz informasiya sahəsində sistemli fəaliyyət təşkil edirdi. Ölkə Prezidentinin bu cür strateji baxışı və yanaşması informasiya mübarizəsində Azərbaycanın mövqelərini gücləndirdi və 44 günlük vətən müharibəsinin informativ və siyasi kompanentlərini formalaşdırdı. Xatırlatmaq yerinə düşər ki, 44 günlük vətən müharibəsi dövründə Azərbaycan Prezidenti dünyanın ən aparıcı kütləvi informasiya vasitələrinin təmsilçilərinə müsahibələr verdi, Azərbaycan həqiqətlərini çox ciddi arqumentləşdirərək dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Xüsusi olaraq vurğulamaq lazımdır ki, əksər hallarda cənab Prezidentə ünvanlanan suallar mərkəzi qərəz formasında səsləndirilirdi. Ölkə Prezidenti bunları sualı ünvanlayanların diqqətinə çatdırırdı və nümayiş etdirirdi ki, o, sualındakı qərəzi açıq duyur. Bununla yanaşı çox ustalıqla, çox böyük siyasi təmkin nümayiş etdirərək, jurnalistin yanlış mövqeyini göstərirdi, eyni zamanda, Azərbaycanın ədalətli mövqelərini çox inamla müdafiə edirdi. Bu Vətən müharibəsi dövründə elə bir kütləvi informasiya vasitəsinin təmsilçisi olmadı ki, cənab Prezidentin qoymuş olduğu arqumentlərə qarşı mövqe sərgiləsin. Bu da ölkə Prezidentinin əsl mənasında diplomat, informasiya müharibəsinin sərkərdəsi olduğunu nümayiş etdirdi. Bundan sonrakı mərhələdə artıq Azərbaycan informasiya müstəvisində də özünün güc mövqeyi ilə çıxış etməkdədir. Hesab edirəm ki, artıq Azərbaycanın informasiya alətləri özünün effektivliyini nümayiş etdirməkdədir və bundan sonra da biz ancaq bunu müşahidə edəcəyik. Bütün istiqamətlərdəki potensialımız informasiya müstəvisində də bizim çox təsirli, miqyaslı potensiy-

"

*Azərbaycan Prezidenti bu reallığı köklü şəkildə dəyişdi*

*Prezident özünün intellekti, problemləri görmə, duyma və çatdırma imkanları ilə bu məsələlərə aydınlıq gətirdi*

alımızı şərtləndirmişdir. Bütün bunalar ölkə Prezidentinin proseslərə praqmatik yanaşmasının bariz nümunəsidir.

**■ Qulu Məhərrəmli, media eksperti, professor:**

Prezidentin dünya KİV-ə, xüsusən Rusiya və Türkiyə televiziya kanallarına və digər media qurumlarına müsahibələri xüsusi önəm daşıyır. Onun fikrincə, indiyə qədər mətbuata çox az müsahiblər verən Prezident 44 günlük Qarabağ savaşında hər gün bu və ya başqa transmedia qurumlarına müsahibələr verməklə Azərbaycanı informasiya blokadasına alınmaqdan qorudu.

Hər halda erməni diasporasının, onun güclü lobbisinin Avropada, Amerikada müəyyən təsirləri var. Belə bir çərçivəni dağıtmaq, parçalamaq və Qarabağ haqqında həqiqətləri demək hava-su kimi lazım idi. Nə yaxşı ki, ölkə Prezidenti özünün intellekti, problemləri görmə, duyma və çatdırma imkanları ilə bu məsələlərə aydınlıq gətirdi. Xüsusən Rusiya telekanallarına verilən müsahibələri qeyd etmək istəyirəm. Azərbaycana qarşı ən çox və ən qərəzli məlumatlar Rusiyadan ötürülürdü. Ona görə də Prezidentin istər televiziya kanallarına, istər TASS informasiya agentliyinə verdiyi müsahibələr bir neçə aspektdə xüsusi əhəmiyyət kəsb edir. Qarabağ haqqında həqiqətlərin söylənməsi, mövcud durum və regiondakı geosiyasi vəziyyət, erməni yalanlarının ifşa edilməsi, həqiqətlərin çatdırılması, xarici kütləvi informasiya vasitələrinin problemə yanlış və qərəzli yanaşmasının ifşası baxımından bunlar çox mühümdür. Prezidentin Almaniyanın nüfuzlu kanallarından birinə verdiyi mesajları, BBC-nin gözlənilməz və çox qərəzli müsahibəsini xüsusilə qeyd etmək istəyirəm. Yəni görünən odur ki, heç kim həqiqəti eşitmək istəmir. Ona görə də bəzən alınan müsahibələr Avropa cəmiyyətinə olduğu kimi çatdırılmadı. Xüsusilə BBC kimi nüfuzlu kanalın yanaşması bizim üçün çox qüsurlu oldu.

Müharibənin gedişatında Prezidentin verdiyi müsahibələr Azərbaycan mediası üçün xeyli mövzu və istiqamət baxımından faydalı oldu. Yəni verilən



Qulu Məhərrəmli,
media eksperti, professor

müsahibələrdə qoyulan məsələlər fundamental məsələlər idi və yerli mediada bundan bir mənbə olaraq dürüst istifadə eləməyə çalışdı.

Bu məsələlərdə illüziyalara qapılmaq olmaz. Prezidentin verdiyi müsahibələr bəlli bir dövrün problemlərini dünyaya çatdırdı, aydınlıq gətirdi.

Prezidentin işi təkcə bundan ibarət deyil. Siyasi, diplomatik gedişlər, görüşlər, mesajlar, münasibətlərin qurulması məsələsi də var. Faktiki olaraq burada söhbət Azərbaycanın özünün yeni informasiya strategiyasından gedə bilər. Bunun da elmi cəhətdən işlənib hazırlanması vacib olan məsələdir. Gəlin görək, müharibədən sonra biz bu sahədə nə edə bilmişik. Bizə elə gəlir ki, filan yerdə tədbir keçirildisə və haqqında 10 qəzetdə məqalə çap olundusa, bu oldu informasiya müharibəsi. Bu, adi təbliğatdır.

Bu təbliğatla informasiya müharibəsinin birbaşa əlaqəsi yoxdur. Bu, sadəcə onun kiçik elementi ola bilər. İnformasiya müharibəsi tamam başqa anlayışdır, informasiya strategiyasının bütün parametrləri işlənib hazırlanmalıdır və onun üzərində də informasiya siyasəti qurulmalıdır. Dərin təəssüf hissi ilə deməliyəm ki, hələlik bu sahədə ciddi uğurlarımız yoxdur. Hər şeyi Prezidentin öhdəsinə buraxmaq, onu həm də bu sahədə önə vermək bəlli bir dövr üçün özünü doğrulda bilər. Ümumiyyətlə, elə bir informasiya siyasəti aparmalıdır ki, onun özü də Prezidentə bu və ya digər formada yardım eləsin. Hər şeyin bir özəlliyi və mexanizmi var. Bu proses də bir mexanizm, elmi əsaslar üzərində qurulmalıdır. Azərbaycanın yerləşdiyi regionu və bədnam qonşuların nəzərə alaraq, daim ayıq-sayıq olmalıyıq, işləməliyik ölkənin informasiya maraqlarını və informasiya təhlükəsizliyini qorumalıyıq.

**■ Könül Nurullayeva, millət vəkili?**

- Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazırdır. Amma təbii ki, hazırda çatışmayan məsələ Ermənistan tərəfindən siyasi iradənin olmamasıdır." Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional



Könül Nurullayeva,
millət vəkili

inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə Prezident İlham Əliyevin bu bəyanatı bir daha təsdiqlədi ki, rəsmi Bakı bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin olunması üçün hərtərəfli səylər göstərir. Lakin sülh sazişi imzalansa, təhlükəsizliklə, gücün tətbiq edilməməsi, cari vəziyyətlə əlaqədar reallıqların qəbul olunması ilə bağlı məsələlər sülh sənədinin ayrılmaz tərkib hissəsi olacaq. Bu, Azərbaycan Prezidentinin prinsipial mövqeyidir:

"Bu beynəlxalq platformada səslənən fikirlərdən, dövlət başçımıza ünvanlanan suallardan da aydın göründü ki, nüfuzlu ictimai-siyasi şəxslər Azərbaycanın ərazi bütövlüyünün bərpasını ədalətin bərpası kimi qəbul edir. 30 illik münaqişənin nəticələrinə gəlincə, diskussiya klubunun üzvləri də etiraf edir ki, işğal Ermənistanı uzun onilliklər geri atdı. Yeni mərhələdə də Ermənistanın zaman itirməsi bu ölkə üçün daha böyük faciələrin başlanğıcı olacaq. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin tribunasınadan verilən əsas mesajlardan biri də bundan ibarət idi ki, revanşizm meyilləri sağlam düşüncəyə və inteqrasiyaya mane olur. Bu günün əsas reallığı unikal əməkdaşlıq formatının yaranmasını şərtləndirən Zəngəzur dəhlizinin reallaşması istiqamətində çalışmaqdır. Çünki bu dəhliz regional iqtisadi əlaqələri, kommunikasiyanı gücləndirməklə yanaşı, həm də sözün bütün mənalarında Ermənistanın son şansıdır. Konfrans iştirakçılarının qənaəti belədir ki, Ermənistan və erməni xalqı bu şansı mütləq dəyərləndirməlidir. Hətta Latviyanın sabiq Prezidenti Valdis Zatlersin timsalında deyə bilərik ki, bəzi siyasətçilər Ermənistan ilə Azərbaycan arasında hərtərəfli sülh sazişini regionun bütün ölkələri ilə təhlükəsizlik sazişi kimi qiymətləndirir. Bəzi iştirakçıların, məsələn İSESCO-nun sabiq baş direktoru Əbdüləziz əl-Tüveycrinin timsalında deyə bilərik ki, Ermənistanın ağlını başına yığacağına ümidi yoxdur.

Bu platformanın əsas vacib xüsusiyyətlərindən biri də postmünaqişə dövründə bəzi proseslərin mane olan səbəblərin dünya ictimaiyyətinə çatdırılması oldu. Belə ki, Ermənistanda ən azı 1 milyon mina basdırdığı ərazilərin xəritəsi olduğu, amma bunu verməməklə, Azərbaycanın əlavə vaxt, maliyyə itirməsinə səbəb olduğu, qayıdış prosesini ləngitdiyi qeyd olundu. Bununla bir daha nüfuzlu beynəlxalq qurumlara çağırış edildi. Ümumilikdə Nizami Gəncəvi beynəlxalq Mərkəzinin təşkil etdiyi müzakirələr Azərbaycanın qlobal səviyyəli məsələlərin həlli üçün mühüm platformaya çevrildiyini göstərməklə yanaşı, həm də bu problemlərin həllində Azərbaycanın rolunun yüksəldiyini nümayiş etdirdi.

**■ Elçin Şıxlı, media eksperti:**

Prezident bundan əvvəl 17-18 il ərzində xarici və yerli jurnalistlərə cəmi 3-4 dəfə müsahibə verib. Vətən Müharibəsi, II Qarabağ savaşı dövründə özü həm hərbi, həm informasiya savaşında sinəsini qabağa verdi və müsahibələr verərək həqiqətləri dünyaya çatdırdı. Müsahibə verəndə də hər jurnalistin dilində danışdı. Yəni ingiliscə, rusca, Anadolu türkcəsində danışdı, öz dilimizdə danışdı. Yəni Prezident öz timsalında bu ölkənin üzünün, simasının nədən ibarət olduğunu göstərdi. Xarici media qarşılarında ermənilərin bizim haqqımızda yaratdığı təəssüratın tam tərsini gördülər. Həm müasirdir, həm millidir, həm öz dinini, imanını bilən adamdır. Bütün sualları da doğru-düzgün bildiyi üçün hamısının cavablarını verib yerində otuzdurdu. Prezidentin informasiya savaşını uğurlu hesab etmək olar, bu həm hərbi savaş idi, həm də informasiya savaşı.

E.Şıxlı Fransanın - Makronun simasında, eləcə də ABŞ Dövlət Departamentinin bəyanatları, Azərbaycana qarşı təzyiqlərin, təsirlərin ölkəmizin qələbəsini kölgələmək, Azərbaycanın zəfərini həzm edə bilməmək kontekstində dəyərləndirib. O bildirib ki, bu ölkələrin Prezident tərəfindən verilən informasiyaları doğru-düzgün qəbul etmək istəməməsi onların siyasi maraqlarının, prosesə ikili yanaşmalarının təzahürüdür:

"Onlar işin nə yerdə olduğunu çox gözəl bilirlər. İnformasiyanı qəbul eləməyə ehtiyacları yoxdur. Lap əvvəldən Azərbaycana qarşı baş verən işğal prosesində işin nə yerdə olduğunu bilirlər, amma həzm eləyə bilmirlər. Birinci səbəb ondan ibarətdir ki, həm birləşmiş Ştatlarda, həm də Fransada erməni diasporası çoxdur. Ermənilər onların vətəndaşları və onların seçiciləridir. Onlar biz azərbaycanlıları tanımırlar, erməniləri isə tanıyırlar. Bəzi iddialara görə Makronun damarında erməni qanı var. Yəni Makron gözəl bilir ki, regionda nə baş verir. O, Fransanın dövlət dəyərlərini qorumur, öz şəxsi maraqla-



Elçin Şıxlı,
media eksperti

rından çıxış edir. Sabah seçkilər gələndə erməni icmasının həm maddi, həm seçici kimi dəstəyinə ehtiyacı olacaq.

Amerikaya gəlincə, təsəvvür edin ki, təkcə Kolifoniyada hər 5-6 nəfərdən biri ermənidir. Ermənilər orada çoxdur və oranın əməkdaşıdırlar. Orda daha çox cənubi azərbaycanlılar yaşayır, sayları 1 milyona qədərdir. Onlar bizi özlərinki saymırlar, yəni bizi orda

"

*Azərbaycanın mühüm platforma kimi mövqeyi güclənir*

*Prezident öz timsalında bu ölkənin üzünün, simasının nədən ibarət olduğunu göstərdi*

təzə-təzə tanımağa başlayıblar. Burada xristian-müsəlman məsələsi də var. Əgər xristian olsaydıq, məsələyə başqa cür yanaşılardı. Ola bilər ki, bu səbəb sonuncu yerdədir. Biz fərdiyyətçilikdə çox güclüyük, amma təşkilatlanmada zəiflik var. Təşkilatlanmağı öyrənirik. Əgər təşkilatlana bilməsəydik, 44 günlük müharibədə qələbə qazana bilməzdik. Ekstremal vəziyyətlərdə bunu edə biliriksə, sülh şəraitində də bunu öyrənəcəyik".

✍ *Tahirə Qafarlı*

## İrsimiz



**Ramin Əlizadə,**
AMEA Tarix İnstitutunun böyük elmi işçisi, albanşünas alim

***Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban Kilsəsini ziyarət edərkən albanşünaslıq tarixinin araşdırılması və inkişafı ilə bağlı verdiyi tövsiyələr Azərbaycan alimlərinin qarşısında yeni tələblər qoyub. Alban abidələrinin Azərbaycanın böyük bir tarixi irsi, mirası kimi tədqiq olunması erməni yalanlarının ifşası və dünyaya təqdim olunması baxımından əhəmiyyətli və vacibdir. Bu istiqamətdə Hafta.az-a müsahibə verən AMEA Tarix İnstitutunun böyük elmi işçisi, albanşünas alim Ramin Əlizadə albanşünaslıq elminin, tarixinin araşdırılması istiqamətində müəyyən fikirlərə diqqət çəkib.***

# Qədim Alban dilini necə öyrənək?

### "Ermənistanda ermənilərin heç bir kilsəsi olmayıb"

***- Ramin müəllim, bugünə qədər Alban tarixi necə araşdırılıb və Alban abidələrinin təhqiqi onun hansı tarixi-mədəni irsə aid olduğunu sübut edir?***

- Sovet dövründə albanşünaslıq elmi sovet-gürcü alimlərinin nəzarətində olan bir sahə olub. Dünya azərbaycanlıları alimləri bu sahədə məhz sovet alimlərinin, gürcü alimlərinin rəhbərliyi altında yetişib, işləyiblər. Sovet dövrü albanşünaslığı ilə bağlı elə məqamlar var ki, onlar o dövrün siyasi konnekturasına uyğun şəkildə yazılıb, ortaya qoyulub.

Ona görə də həmin dövrdə Alban kilsələri ilə bağlı heç bir mübahisəli məsələlərdən bəhs edilmir. Yəni kilsələrin geniş araşdırılıb tədqiq olunması o qədər də aktual mövzu kimi ortaya qoyulmayıb. Ermənilər kilsələrin tədqiq olunmasına həmişəki kimi saxtakar yanaşıblar. Kilsələrin bir neçəsində xristian din xadimlərinin qəbirlərini qazıblar, sümüklərini çıxarıb aparıblar. Ağdam yaxınlığında Alban hökmdarı III Vaçaqanın qəbri olan abidəni də söküb aparıblar. Onun nəşinin harada olduğu bu gün də bilinmir. Alban tarixçisi Musa Kalankatlı III Vaçaqan haqqında yazır ki, o, Albaniyada ildəki günlərin sayı

> "Alban Mərkəzinin rəsmi olaraq fəaliyyət göstərməsi barədə internetdə də heç bir məlumat verilmir

qədər kilsə tikdirib. Elə bu faktları və Qarabağda, Azərbaycan ərazilərində olan Alban kilsələrin tarixini araşdıranda görürük ki, kilsələrin əksəriyyəti V əsrin sonu, VI əsrin əvvəli III Vaçaqanın hakimiyyət illərinə düşür. Vaçaqanın dövründə kilsə tikilişi çox geniş yayılıb.

Tarixi mənbələrdə deyilir ki, Vaçaqan başqa bütpərəstləri, atəşpərəstləri və digər dinləri təqib edib və Xristianlığı yayıb, təbliğ edib. Ağdam yaxınlığında olan Aqvien kəndində kilsə məclisləri keçirilib, Xristianlığa aid qanunlar qəbul olunub. Vaçaqan Xristianlığın Albaniyada geniş yayılması üçün böyük tədbirlər görüb. Yəni Albaniyada dövlət səviyyəsində Xristianlıq təbliğ olunub. Alban tarixçisi Musa Kalankatlı "Alban tarixi" əsərində yazır ki, "Hələ I əsrdə Albaniyada Kiş məbədində Müqəddəs Yenisey tərəfindən kilsə tikiləndə ermənilərdə Xristianlığa, kilsəyə aid heç nə yox idi".

Yenə "Alban tarixi" əsərində yazılır ki, "Albanlar ermənilərdən 370 il əvvəl Xristianlığı qəbul ediblər". Mənbələrdə ermənilərin xristian din xadimi İsa peyğəmbərin həvarilərindən olan müqəddəs Fabbeyi qətlə yetirməsindən yazılır. Mənbədə deyildiyi kimi, onun tələbəsi Müqəddəs Yenisey ermənilərin gözündən yayınaraq Araz çayını keçir və Albaniyada Xristianlığı qəbul edir. Mənbələrdə deyilir ki, hələ o vaxt ermənilər Anahid məbədinə gedirdilər. Onlar müxtəlif bütlərə, heykəllərə sitayiş edirdilər. Qədim yunan coğrafiyaçısı Strabon yazır ki, "Ermənilər Anahid məbədini əxlaqsızlıq yuvasına çevirmişdilər. Onlar öz qadınlarını əxlaqsızlıq üçün o məbədə göndərirdilər". Ermənilərin xristian olub-olmadığın sübut edən IV əsrə aid məlumatlar var. İran tarixçisi əslən bizanslı olan Taafun - hansı ki, ermənilər ona Taftun deyir - yazır ki, "IV əsrin ortalarında xristian İusik adlı kilsə başçısını kilsənin içərisində olan erməni Sarikyanın əmri ilə dəyənəklə döyüb öldürürlər. Bunlar xristianlığı qəbul etmir, əksinə, xristian din xadimlərini qətlə yetirirdilər". Həmin vaxt isə Albaniyada Xristianlıq artıq yayılmışdı. Ona görə də qədimiliyinə görə Albaniya kilsələri ilə müqayisə olunan kilsələr yoxdur. Bu gün ermənilərin əsas kilsə mərkəzi olan Eçməzdin erməni qriqorian kilsəsinin mərkəzi elan edilib. Əslində, onun adı Üçməzdindir. Üç azan verən Üçməzdin müsəlman kəndində olub.

O da XVI əsrə aiddir, XV-XVI əsrlərə qədər Qərbi Azərbaycan, yəni indiki Ermənistan ərazisində ermənilərin heç bir kilsəsi olmayıb. Halbuki Alban kilsələrinin tarixi I əsrdə Şəkinin Kiş kəndindən başlayır. Kiş məbədi I əsrdə tikilib. 2000 il bundan əvvəl Albaniya ərazisində artıq kilsə tikilmişdi və Xristianlıq təbliğ olunurdu. 313-cü ildə Alban hökmdarı Urnaid ilk dəfə Xristianlığı Albaniyada rəsmi dövlət dini elan edir. Həmin dövrdə isə qeyd etdiyim kimi, ermənilər xristianlara qarşı terror, qətllər törədirdilər.

### Kilsələrdəki yazılarda ermənilərin adı çəkilmir

***- Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban Kilsəsi və orada yaşayan udinlərin, albanların varisi kimi tədqiq olunması ilə bağlı nələri söyləmək olar?***

- Bu gün udinlərin Alban-xristian dininin varisləri kimi tədqim olunmaları normal prosesdir. Həmin ərazilərdə bizim Alban xristianlarının yeganə varisləri udinlərdir. Qarabağ işğaldan azad olunub və udinlər gedib o məbədləri ziyarət edirlər. Bu alqışlanmalıdır. Digər tərəfdən, burada bir məsələ də var ki, o xristian kilsələri təkcə udinlərə aid deyil. Alban abidələri bütövlükdə Azərbaycan xalqının tarixi- mədəni mirasıdır. Vaxtilə Azərbaycanda Xristianlığı qəbul eləmiş tayfalar olub. Eramızdan əvvəl I əsrin əvvəlində yaşayan Straqon yazır ki, Albaniyada 26 tayfa var idi. Həmin tayfalardan biri udinlər idi, qalan 25 tayfanın içərisində olanların əksəriyyəti sonradan İslamı qəbul elədilər. Çox az tayfalar xristian kimi qaldırlar. Udinlər də xristian kimi qalan Alban tayfalarından biri idi. Ona görə də Alban məbədləri tarixi-mədəni abidə kimi bizim müqəddəs abidələrimizdir və onları bərpa eləməliyik. Ermənilərin həmin kilsələrə aid olduğunu sübut edən heç bir ad çəkilməyib. O məbədlərdəki yazılarda nə erməni xalqının adı çəkilir, nə də hansısa erməni hökmdarlarının adı var. Kəlbəcər rayonunda olan Gəncəsar monastırı 1216 -1238-ci illərdə tikdirən Alban Xatın knyazı Həsən Cəlal o kilsənin üstündə yazdırıb ki, mən bu kilsəni öz Alban xalqım üçün inşa eləmişəm. Yeni konkret bu kilsənin üzərindəki yazı sübut edir ki, bu, albanlara aiddir.

Bu gün ruslar orda post qurub, azərbaycanlıları ora buraxmırlar. Bizimkilər o məbədi çox çətinliklə ziyarət edir. Həmişə deyirəm ki, ruslar öz sülhməramlılarından əvvəl ora epiqrafik yazıları oxuyan mütəxəssis göndərsəydilər və onlar gəlib o yazıları oxusaydılar görərdilər ki, həmin kilsə ermənilərə yox, albanlara aiddir. Kilsələrdəki yazılarda ermənilərin adı çəkilmir.

***- Nəyə görə sovet dövründə Azərbaycan alimlərinə Alban tarixinin tədqiqinə icazə verilmirdi?***

- Albaniya ilə bağlı ən çox mənbələr Ermənistanda Matiqaran adlı Əlyazmalar İnstitutunda saxlanılırdı və onlar da erməni alimlərinin nəzarətində idi. Ermənilər tarixi istədikləri kimi saxtalaşdırırdılar. Əgər o mənbələr aşkarlansaydı, əlbəttə ki, Alban mirasının ermənilərə aid olmadığı ortaya çıxardı. Ona görə də sovet dövründə bu sahələrin araşdırılması əsasən ermənilərə verilirdi. Onlar da albanşünaslıqla məşğul olan qondarma tarixçilər yetişdirirdilər. Musa Kalankatlının "Alban tarixini" tərcümə edib hər cür saxtakarlıqlar edirdilər.



### Alban yazılarını oxuya bilən mütəxəssislər yetişməlidir

***- Ramin müəllim, bildiyimizə görə, Azərbaycanda Albanşünaslıq Elmi Mərkəzi yaranıb. Bu barədə nələri söyləyərdiniz?***

- Mərkəzin AMEA-da yarandığı deyilir. Bu barədə rəsmi sənəd yoxdur. İlkin məlumata görə, mərkəzə tarixçi alim Fəridə Məmmədovanı rəhbər təyin ediblər. AMEA prezidenti Ramiz Mehdiyevin yanında iclas keçirilib və orada Alban Mərkəzinin yaradılması barədə tövsiyələr verilib. Mərkəzin rəsmi fəaliyyəti barədə hələ ki, qəti qərar bilinmir. Açığını deyim ki, Alban Mərkəzinin rəsmi olaraq fəaliyyət göstərməsi barədə internetdə də heç bir məlumat verilmir.

Bu gün Alban yazılarını oxuya bilən mütəxəssislər yetişməlidir. Dəfələrlə bildirmişəm ki, Alban mirasına sahib olmaq üçün gərək Alban əlifbasını araşdıran, tədqiq edən mütəxəssislər yetişdirilsin. Biz də arzulayırıq ki, Alban Mərkəzi ciddi startla fəaliyyətə başlasın.

Prezident, atrıq öz tövsiyələrini verib. İnşAllah, bundan sonra Alban dilində dərsliklər yaranıb, əlifbalar tətbiq olunub, kitablar nəşr olunacaq. Prezidentin məlum bu göstərişi tarixçilərə albanşünas nəslin yetişməsi üçün çox əhəmiyyətlidir.

Biz bu gün Alban abidələrindən danışırıq, amma məscidlərimiz də ermənilər tərəfindən yerlə-yeksan olunub. Onların yeri də məlumdur. Jurnalistlərin iştirakı ilə gedib o məscidlərimizə baxıb, bu abidələrimizlə bağlı orjinal, yeni bir material təqdim edə bilərik. Zəngəzur mahalında qalan kifayət qədər məscidlərimiz var ki, onların tədqiqi ilə də məşğul olmalıyıq. Zəngəzurda 18 məscid var və bizdə onun xəritəsi də var. Müasir koordinatlarla müəyyən eləmişik ki, orada cəmi 8 kilsə olub.

Hələlik isə tarixçi, bir albanşünas kimi çox istərdim ki, Kəlbəcərdəki həmin abidələrin araşdırılmasına başlanılsın. Bu gün o yerlərə getmək çətin olduğu üçün Zəngilanda, Qubadlıda olan Alban kilsələrinə media, alimlərin iştirakı ilə ekspedisiyalar təşkil olunmalıdır.

### Albanlar kilsəyə "tapınaq" deyirdilər

***- Hazırda Alban dilinin tədqiqi, elmi əsərlərin yaranması nə vəziyyətdədir?***

- Alban dilinin tədqiqi ilə məşğul oluram. Alban dilində bu günə gəlibçatan dini mətnlər var ki, tərcümə olunub. Həmin mətnləri tədqiq edərkən, orada xeyli sayda türk sözlərinə rast gəlmək olur. 40-dan artıq türk sözü tapmışam orada. Məlum olur ki, albanlar kilsəyə "tapınaq" deyirdilər. "Tapınaq" sözü türk sözüdür. Alban dilində "bilgi", "anlamaq" sözü var. Albanlar "qol" sözü işlədiblər. Albaniya ərazisində axund tayfaları var ki, bunlar abdal tayfaları kimi tanınır. Eləcə də bir çox mənbələrdə Albaniyada yaşayan qədim tayfalardan biri kimi Qarabağ ərazisində peçenekərin, hunların yaşaması haqqında məlumatlar gedir.

Söyləməliyəm ki, bizdə Alban dilinin tədqiq olunması hələ ki, akademik səviyyədə aparılmır. Alban əlifbası olsa da, onun qrammatikası, tədqiqi, araşdırılması ilə bağlı geniş məlumat yoxdur. Çox arzu edərdik ki, Alban dilində dərslik yaransın və bu dil dərindən öyrənilsin. Hesab edirəm, albanşünaslığın inkişafı, öyrənilməsi sahəsində ciddi layihələrin işlənməsinə, bu sahəyə marağın artırılmasına ehtiyac var.

***- Ramin müəllim, hazırda Qarabağdakı Alban tarixi abidələrinin araşdırılması prosesi necə gedir?***

- Alban abidələri və Qarabağın Alban əhalisi ilə bağlı bir neçə məqaləlerim var. Norveçdə yəhudi alimi ilə birgə hazırladığımız kitabda "Torpaq kimə məxsusdur", "Qarabağda qarşıdurma və Alban Ərsax süláləsinin mənşəyinə dair" faktlar önə çəkilir. Eyni zamanda, Akademiyanın "Elm və həyat" jurnalında da Arsax-Ərsax tarixini araşdıran elmi məqaləm çıxıb. Yəni bu istiqamətdə müəyyən işlər görülür, amma azdır. Bu sahəyə xüsusi diqqət ayrılmalıdır. Düşünürəm ki, Prezidentin albanşünaslıq elminin, tarixinin araşdırılması ilə bağlı tövsiyələrindən sonra vəziyyət dəyişəcək. Qarabağ minalardan təmizlənib, yollar açılandan sonra bütün abidələr tədqiq olunacaq. O abidələri Prezidentin də tövsiyə etdiyi kimi, öz tarixi görkəminə qaytarıb, öz sahiblərinə - Azərbaycan xalqının istifadəsinə verəcəyik. İnanıram ki, albanşünaslığın öyrənilməsi, tədqiqi bundan sonra daha çox inkişaf edəcəkdir.

✍ *Tahirə Qafarlı*

# Xalq rəssamı Tahir Salahov vəfat edib



***Azərbaycanın Xalq rəssamı Tahir Salahov vəfat edib. Qızı bildirib ki, T. Salahov Almaniyada dünyasını dəyişib. Tahir Teymur oğlu Salahov 1928-ci il noyabr ayının 29-da Bakı şəhərində anadan olub.***

1945-ci ildə Bakı şəhərində orta məktəbi bitirib. 1950-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirdikdən sonra V.İ.Muxina adına Leninqrad ali rəssamlıq sənaye məktəbinə daxil olmuşdur. 1951-ci ildə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq (İncəsənət) İnstitutuna daxil olub. 1955-ci ildə "Dalğa" və "Estakada" adlı ilk əsərlərini çəkib, ümumittifaq, xarici və respublika sərgilərində iştirak edib. O, 1957-ci ildə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu rəssam-nəqqaş peşəsi üzrə bitirib. Həmin il Tahir Salahov SSRİ Rəssamlıq İttifaqına üzvlüyə qəbul edilib.

1960-1961-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının məsul katibi, sonra dosent vəzifəsini yerinə yetirib. 1963-cü ildə Tahir Salahov sülhü müdafiə Sovet Komitəsinin və SSRİ Rəssamlar İttifaqı idarə heyətinin üzvü seçilib.

Azərbaycan SSR Ali Sovetinin deputatı olub. O, 1963-cü ildən 1974-cü ilə qədər M.Ə.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda professor vəzifəsində çalışıb. 1966-cı ildə SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilib. SSRİ Ali Sovetinin deputatı olub. 1968-ci ildə SSRİ rəssamlar İttifaqının idarə heyətinin katibi seçilib.

1972-ci ildə Azərbaycan SSR Rəssamlar İttifaqı İdarə Heyətinin sədri olub. 1973-cü ildə SSRİ Rəssamlarının IV qurultayında SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi seçilib. 1973-cü ildən 1992-ci ilə qədər SSRİ Rəssamlar İttifaqı idarə heyətinin birinci katibi olub.

1975-ci ildə SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, 1976-cı ildə Təsviri İncəsənət Beynəlxalq Assosiasiyasının icraiyyə komitəsinin üzvü seçilib. 1979-cu ildən 1997-ci ilə qədər SSRİ Rəssamlıq Akademiyasının Rusiya Rəssamlıq Akademiyası rəyasət heyətinin üzvü olub.

1983-cü ildə SSRİ Rəssamlarının VI qurultayında SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi, Avstriya Rəssamlar İttifaqının fəxri üzvü və UNESCO-nun nəzdində Millətlərarası plastik incəsənət Assosiasiyasının vitse-prezidenti və fəxri prezidenti seçilib. 1987-ci ildə Fransa İncəsənət Akademiyasının müxbir üzvü seçilib. 1992-ci ildə Rəssamların Beynəlxalq Federasiyasının vitse-prezidenti seçilib. 1996-cı ildən Rusiya Federasiyasının Xalq rəssamıdır.

1996-cı ildən 2000-ci ilə qədər elm, təhsil, səhiyyə və mədəniyyət üzrə Palatanın sədrinin müavini, Rusiya Federasiyası Prezidenti Yanında Yaradıcılıq İttifaqları ilə Əlaqələr Komissiyasının Siyasi məşvərət şurasının sədri kimi fəaliyyət göstərir. 1997-ci ildə Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti seçilib. O, 1998-ci ildə Qırğızıstan Respublikasının Rəssamlıq Akademiyasının həqiqi üzvü, Azərbaycan Ekoenerji Beynəlxalq Akademiyasının akademiki və İspaniyanın San-Fernando Gözəl Sənətlər Kral Akademiyasının müxbir üzvü seçilib.

2011-ci ildə Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü və Almaniya Rəssamlar İttifaqının fəxri üzvü seçilib. 2012-ci ildə Ulyanovskda keçirilən A.A.Plastova adına təsviri incəsənət sahəsində beynəlxalq mükafatın - "Beynəlxalq Adlar" nominasiyasının laureatı adına layiq görülüb. Üç qızı, bir oğlu var.

# "Avropa Parlamentinin qətnaməsi kağız parçasıdır"



**Sahibə Qafarova,**
Milli Məclisin sədri

**"Avropa Parlamentində "hərbi əsir"lərlə bağlı qəbul edilən qətnamə təəssüf doğurur". Bunu Milli Məclisin sədri Sahibə Qafarova deyib.**

Sədr bildirib ki, erməni təbliğatının təsiri altında Azərbaycana qarşı belə sənəd qəbul edilib: "Bu, sadəcə, kağız parçasıdır. Bu, Avropa İttifaqının Azərbaycana qarşı münasibətini əks etdirmir. Azərbaycan Aİ ilə münasibətlərin hərtərəfli inkişafında maraqlıdır. Avropa Parlamentində bəzi qərəzli qrupların səyləri Azərbaycan və Aİ arasında münasibətlərə heç bir xələl gətirə bilməyəcək".

# Jurnalistlər binasındakı mənzillərlə bağlı açıqlama



**Son dövrlər "Jurnalist Evi" MMC-nin balansında olan mənzillərin özəlləşdirilməsi ilə bağlı mediada müxtəlif mülahizələr irəli sürülməkdədir. Bu məsələ ilə bağlı bildirmək istərdik ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə daxil olmuş müraciətlərlə əlaqədar aidiyyəti dövlət qurumları ilə müzakirələr aparılıb.**

Bu barədə **hafta.az-a** Medianın İnkişafı Agentliyindən məlumat verilib. Bildirlib ki, müzakirələrin nəticələrinə müəyyən edilib ki, qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq həmin mənzillərə dair dövlət reyestrindən çıxarış almaq üçün müvafiq dövlət rüsumu ödənilməli və tələb olunan sənədlərlə birlikdə aidiyyəti orqana müraciət edilməlidir. Bu prosedurla bağlı qanunvericilikdə hər hansı istisna nəzərdə tutulub.

Əlavə olaraq qeyd edilib ki, "Jurnalist Evi" MMC-nin sakinlərinin böyük əksəriyyəti qanunvericiliklə təsbit olunmuş prosedurun yerinə yetirməklə heç bir problem yaşamadan mənzillərinə çıxarış alınıb.

# Çoxuşaqlı ailələr

## Layihə

***Ailələrdə uşaqların sayı ilə bağlı müzakirə hər zaman aktual olub. Son illər isə Azərbaycan cəmiyyətində bu mövzu ilə bağlı müzakirələr daha da aktuallaşıb. Ölkəmizdə "çoxuşaqlı ailə" modeli tədricən sıradan çıxmaqdadır. On ildən çoxdur ki, müasir ailələr ya bir, ya iki uşaqla kifayətlənirlər. Hazırda 3-4 uşağı olan ailələrin sayı barmaqla sayılacaq qədərdir, 5-6 uşaqlı ailələrə isə nadir hallarda rast gəlinir. Qeyd edək ki, sovet dövründə "çoxuşaqlı ailə" məfhumu 4-dən çox uşağı olan ailələrə şamil olunurdu. SSRİ-də "Qəhrəman ana" medalı da vardı ki, bu medal 10 və daha çox övladı olan qadınlar üçün 1944-cü ildə təsis edilmişdi.***

*Ölkəmizdə "çoxuşaqlı ailə" modeli tədricən sıradan çıxmaqdadır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması





**Vəfa Rəşidova,**
psixoloq

*"Bu gün çoxuşaqlı ailələrin az olmasının psixoloji səbəbi valideynlərin çox maksimalist olmaları ilə bağlıdır*

Məqsəd isə əhalinin sayının azalmasının, artımın aşağı düşməsinin qarşısını almaq idi. Bu gün ölkəmizdə 6 və daha çox uşağı olan ailələr çoxuşaqlı ailə hesab edilir. Prezident İlham Əliyevin 27 dekabr 2013-cü il tarixli "Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Fərmanına görə 2014-cü ilin əvvəlindən yeni sosial təminat növünün- 5-dən çox uşağı olan qadınların 18 yaşına çatmamış hər bir uşağına görə aylıq sosial müavinətin verilməsinə başlanılıb. Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli Fərmanı ilə aprelin 1-dən digər bir çox sosial ödənişlər kimi, 5-dən çox uşağı olan qadınların hər uşağına görə aylıq müavinət də 33 manatdan 55 manata çatdırılıb. Yəni, ailədə 18 yaşına çatmamış 6 uşaq varsa, həmin ailəyə aylıq 330 manat, 7 uşaq varsa 385 manat verilir. Bəs görəsən, Azərbaycanda çoxuşaqlı ailə modelinin sıradan çıxmasına səbəb nədir? Ailədə xüsusilə tək övladın olmasının hansı mənfi və müsbət xüsusiyyətləri var?

Araşdırılmalara görə, tək uşaq olmanın həm üstünlükləri, həm də mənfi cəhətləri mövcuddur. Mütəxəssislər hesab edirlər ki, tək uşaq bacı-qardaşlar arasında olan yarış və qarşıdurma vəziyyətlərini yaşaya bilmədiyi üçün akademik olaraq daha müvəffəqiyyətli ola bilər. Ancaq tək uşaq yetkinlikdən əvvəlki dövrdə ailələrinə qarşı bəzi mövzularda birlikdə mübarizə verə biləcəkləri bacı-qardaş əskikliyini hiss edə bilərlər. Lakin ümumilikdə, tək uşaq bacı-qardaşı olan uşaqlara nisbətən çox da fərqli deyillər. Əslində, uşağın tək uşaq olmasından çox, necə böyüdüldüyü əhəmiyyətlidir. Bir bacı və ya qardaşın olmasından çox, ananın böyütmə təcrübəsi, uşağın qəbul etməsi, rədd etməsi, sözə qulaq asması və ya asmaması və ona qarşı səbirli olub-olmaması uşağın ruhi sağlamlığı baxımından daha əhəmiyyətli yer tutur.

Mütəxəssislər bildirirlər ki, tək uşağa özəlliklə tək uşaq olaraq deyil, sadəcə uşaq olaraq davranmaq lazımdır. Yaddan çıxarmaq olmaz ki, sizin onu tək olduğu üçün qoruduğunuzu uşaq hiss edə bilər. Eyni zamanda, uşağa yaşına uyğun qaydalar qoymaq və bu qaydaları dayanıqlılıq içində tətbiq etmək lazımdır. Uşaq qaydalara əməl etsə, bunun xöşbəxtliyini yaşayacaq. Uşağın hər istədiyini həmin an etməyə çalışmayın. Lazımlı olduğunu düşündüyünüz istəklərini yerinə yetirin. İstəklərinin yaşına və sizin fikirlərinizə uyğun sərhədlərdə olmasını təmin edin. Üç yaşından sonra yaşıdlarıyla, ya da başqa uşaqlarla birlikdə oynamaları üçün fürsət yaradın. Bağçaya göndərmək imkanınız yoxdursa, uşaqlı ailələrlə görüşüb uşaqların bir yerdə olmasına, oyun oynamaqlarına, dostluq etmələri üçün vaxt ayırın. Edə biləcəyindən çox şey gözləməyin. Həmişə mükəmməl olmağa çalışmaq uşağı yorar və ondakı müvəffəqiyyətsizlik qorxusu artar. Uşağa söz haqqı verin, amma bu, bütün qərarları uşağın verəcəyi haqqında düşüncə yaratmasın. Sizə uyğun alternativləri təklif edin, uşaq bu alternativlərinizdən birini seçsin. Bundan başqa, geyinmə, soyunma, yemək yemə, təmizlik kimi hər fürsətdə özünə baxmağına, qulluq etməsinə imkan yaradın. Çalışın ki, evdə məsuliyyətləri olsun, sizdən asılı olmadan öz ehtiyaclarını qarşılaması üçün dəstək verin.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən psixoloq Vəfa Rəşidova deyib ki, tək uşaqlı ailələrdə daha çox davranış pozuntusu müşahidə olunur. "Ona görə ki, onun nazı ilə həddindən artıq çox oynayırlar, onun hər istədiyini yerinə yetirirlər, nə varsa, onun üçün edirlər. Bu da təbii ki, bir şəxsiyyətin tam köklü formalaşmasında çox ciddi ziyanlar verir".**

Onun fikrincə, bu gün çoxuşaqlı ailələrin az olmasının psixoloji səbəbi valideynlərin çox maksimalist olmaları ilə bağlıdır: "Məsələn, valideyn düşünür ki, bir övladım olsun, amma onu mükəmməl oxudum, mükəmməl yedizdirim, mükəmməl geyindirim düşüncəsi var. Düşünürlər ki, 3-4 övladı olarsa, onu mükəmməl şəkildə böyüdə bilmərəm. Bu mükəmməlliyyatçılıqda təbii ki, xarakterdən və həyat tərzindən irəli gəlir. Mükəmmilliyyatçı insanlar hər şeyin ən yaxşısını istəyir. Bunlar ya olursa ən yaxşısı olsun, olmursa, heç olmasın düşüncəsində olan valideynlərdir. İnsan psixologiyası dəyişir. 20-30 il bundan əvvəlki valideynlər bu düşüncədə olmaya bilirdilər. Amma insan psixologiyası, dünyagörüşü, yanaşması dəyişdiyi üçün mükəmməlliyatçılığa doğru gedirlər. Bunun sonu da belə bir davranışlar sərgiləyir ki, bir uşağım olsun, amma hər şeyi olsun. Ona görə də ailələrdə çox uşaq istənilmir. Valideynlərdə belə bir qorxu da olur ki, birdən mən bir uşağın təhsilinə, geyiminə həddindən artıq fikir verərəm, amma o birinə edə bilmərəm. Əslində bu, yanlış düşüncədir. Maksimalist insanlar üçün ortamı qoruyub saxlaya bilmədikləri üçün onlarda "3-4 uşaq arasında balansı qoruyub saxlaya bilmərəm" qorxusu olur. Buna görə də az uşaq olanda onlar özlərini psixoloji olaraq daha güvəndə hesab edirlər. Düşünürlər ki, bu ailənin bir uşağı var, onun üçün hər şeyi edib. O birinin 4 uşağı var, amma hamısına əl yetirə, yaxşı təhsil verə bilməyib. Mən də onun kimi bir uşağım olsun, hər şeyi olsun. Bu əslində psxioloji narahatlıq, güvənsizlikdir. Bunu çox insanlar maddiyyatla bağlayır, amma maddiyyatla əlaqəsi yoxdur. Maddi vəziyyəti elə də yaxşı olmayan ailələr var ki, onların hər şeyləri öz qaydasındadır, təhsilləri də, dünyagörüşləri də valideyn tərəfindən qorunub saxlanılıb". V.Rzayevanın dediyinə görə, çoxuşaqlı ailələrin müsbət tərəfi birinci növbədə uşaqların məğlubiyyəti qəbul etməyi bacarmasıdır: "Nümunə olaraq sonbeşik uşaq böyük qardaş-bacıdan gözəl nümunələr, gözəl davranışlar götürə bilir. Və yaxud, onlarda qısqanclıq problemləri də olur. Çoxuşaqlı ailələrdə böyüyən uşaqlar cəmiyyətə də gözəl şəkildə adpatasiya ola bilirlər. Cəmiyyətdə ünsiyyət problemləri olmur. Ailədə tək uşağın isə hər zaman ünsiyyət problemi olur".

### Ekspert rəyi...

■ **Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlu deyib ki, əhali artımında müşahidə olunan tendensiyalar dünyanın ən qlobal problemlərindən biridir:**

"Artıq ötən əsərin 60-cı illərindən başlayaraq bir çox beynəlxalq təşkilatlar, qərb ölkələri həyəcan siqnalı verməkdədirlər ki, Avropada əhali getdikcə azalır, digər, o cümlədən Afrikada isə əksinə, artır. Bunun iki qorxulu tərəfi görünür. Onun bir tərəfi budur ki, yer üzündə əhali sürətlə artır və onların yaşayışı üçün resurslar artıq çatmayacaq. Digər tərəfi isə ondan ibarətdir ki, qərb düşüncəsinin daşıyıcıları azalacaq və Avropanın əldə etdiyi nailiyyətlə dağılacaq. Bunun hər ikisində həqiqət var. Buna görə də bütün ölkələrdə əhali artımı beynəlxalq təşkilatların, güc mərkəzlərinin nəzarəti altındadır. Onlar istəmirlər ki, kiçik dövlətlərdə, Afrikada əhalinin artması sürətlənsin. Bunun üçün də müxtəlif üsullarla əhali artımının qarşısını almağa çalışırlar. Bunun da yollarından biri müharibələrdir. Digər yolu isə müxtəlif silsilə layihələrin həyata keçirilməsi, maarifləndirilmədir. Əgər sovet dönəmini yada salsaq, Azərbaycanda 60-cı illərin ortalarında hər ailəyə 5 uşaq düşürdü, hər ay "Kommunist" qəzetində bir "Qəhrəman ana" haqqında yazılar dərc olunurdu. İndi vəziyyətin bu cür olmasında həmin beynəlxalq aləmdə baş verən proseslərdir ki, bu da öz güclü təsirini göstərir. Təbii ki, ailədə tək övladın olması arzuolunan deyil. Çünki ailədə uşaq yeganə olanda ən əsası ölkədə əhali artımı getdikcə azalır. Məlum olduğu kimi, hər insan evlənə və yaxud iki uşaq sahibi ola bilmir, bu da əhali artımına təsir göstərir. Eyni zamanda tək uşağın olmasının psixoloji tərəfləri olur. Belə ki, tək olanda, ailədə onun tay-tuşu uşaqlar deyil, ata-ana, nənə-baba olur. Bu zaman uşaq eqoist böyüyür.

Ən arzuolunan hal odur ki, ailədə 3 uşaq olsun". Onun fikrincə, bu məsələdə ailələrin işinə müdaxilə etmək də doğru deyil: "Bununla bağlı BMT-nin bəyanatı da var. Həmin bəyanatda bildirilir ki, heç bir dövlətə və yaxud ailəyə uşaqların sayı neçə olsun kimi təsirlər edilə bilməz. Uşaqların sayı o qədər olsun ki, onlar keyfiyyətli böyüsün. Əslində bu doğru fikirdir. Bizə gərəkli deyil ki, ailədə 10 uşaq olsun və onlardan kimsə xəstə və yaxud savadsız olsun. Ondansa az olsun, amma keyfiyyətli olsun. Bir daha qeyd edirəm ki, ən arzuolunanı budur ki, ailədə 3 uşaq olsun. Bu istiqamətdə işlər getməli, ailələrə köməklik göstərilməlidir ki, həmin uşaqlar keyfiyyətli böyüsün".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Layihə

***Peşə təhsili ümumi təhsilin tərkib hissəsi olmaqla ölkənin sosial-iqtisadi inkişafına təkan verən aparıcı sahələrdən biri hesab olunur. Keyfiyyətli peşə təhsili fərdin peşəkar sahədə elmi-texnoloji biliklərini genişləndirir. Bununla əlaqədar, dövlət səviyyəsində peşə təhsilinin inkişafına istiqamətlənən tədbirlər əhalinin fəal hissəsinin yerli və beynəlxalq əmək bazarındakı dəyişikliklərə müvafiq reaksiya verməsinə imkan yaradır.***



# Peşə təhsilində idarəetmə təkmilləşdiriləcək

Azərbaycanda bu məqsədlə peşə təhsili menecerləri hazırlanır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Bu yaxınlarda peşə təhsilinin inkişafı ilə bağlı daha bir addım atılıb. Belə ki, Avropa İttifaqı (Aİ), BMT-nin İnkişaf Proqramı (BMTİP) və Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) gələcək peşə təhsili menecerləri üçün yeni təlim proqramına başlayıb. Qeyd edək ki, "Peşə təhsilində Liderlik və İdarəetmə" proqramı iyulun ortalarına qədər davam edəcək.

Proqramı uğurla başa vuran iştirakçılar peşə təhsili müəssisələrində direktor və direktor müavini kimi yüksək rəhbər vəzifələrə işə qəbul zamanı üstünlüyə malik olacaqlar. 250 müraciətçidən yalnız 25 nəfər 9 həftəlik intensiv proqramda iştirak üçün seçilib. Seçim prosesi müsahibələr də daxil olmaqla 2 mərhələdə baş tutub. Qiymətləndirmə komitəsində PTDA əməkdaşları və layihə mütəxəssisləri yer alıb.

Nəzərdə tutulan təlim kursu 120 saat təşkil edir və 5 modulu əhatə edir. Buraya liderlik, strateji planlaşdırma və idarəetmə, monitorinq və qiymətləndirmə prosesləri, keyfiyyət təminatı sistemləri, maliyyə və inzibati idarəetmə, peşə təhsili sahəsində mövcud qanunvericilik və strateji sənədlərlə iş daxil olmaqla müxtəlif istiqamətlər aiddir. Kursun məqsədi müasir dövrdə peşə təhsil sisteminin tələbləri ilə ayaqlaşmaq üçün iştirakçıları müvafiq bilik və bacarıqlarla təchiz etməkdir. Proqramın sonunda sessiyaları uğurla başa vuran namizədlər sertifikatla təltif olunacaqlar.

Onu da bildirək ki, peşəkar təlim proqramı Avropa İttifaqının maliyyələşdirdiyi və BMTİP-nin Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə ortaq şəkildə həyata keçirdiyi "Gələcək üçün Peşə Təhsili və Təlimi: Azərbaycanda Qabaqcıl Peşə Təhsili Mərkəzlərinin yaradılmasına dəstək" layihəsi çərçivəsində təşkil edilir. Layihənin əsas məqsədi Azərbaycandakı peşə təhsili müəssisələrini müasirləşdirməyə və əmək bazarının mövcud ehtiyaclarına uyğun tədrisin təşkilinə dəstək olmaqdır.

Mütəxəssislər hesab edirlər ki, müasir təhsil sistemində idarəetmə prosesi, ümumiyyətlə, bütöv bir fəaliyyətin təşkili mürəkkəb sistemdir. Bu mürəkkəbliyi aradan qaldırmağın əsas yollarından biri pedaqoji menecmentin prinsiplərinə düzgün əməl etmək və bu prinsiplərdən irəli gələn məsələləri, tələbləri demokratik şəkildə həyata keçirməkdir. Burada ən vacib amil insanın şəxsi ləyaqətinə hörmət edilməli, qarşılıqlı hörmət əsasında inam atmosferi, insanın öz imkanlarını aşkar edə biləcəyi şərait yaradılmalıdır.

Bir sözlə, dəstəkləyici mühit təşkil olunmalıdır. Belə olduqdan sonra idarə edən şəxs məqsədlərini həyata keçirib istənilən nəticəni əldə edə bilər. Həmçinin idarəçi kollektiv üzvlərinin həyat tərzini, onların ümumi tələbatlarının nələr olduğunu bilməli və onların təminatı üçün maraqlı olduğunu özlərinə hiss etdirməlidir. Bəzən işə zərər olmadan qarşılıqlı güzəştə getməyi də bacarmalıdır.

Müşahidələr onu göstərir ki, müasir şəraitdə təlim-tərbiyə məsələlərinin kompleks həllində təhsil müəssisəsinin idarə olunmasının, ona rəhbərliyin rolu xeyli artıb və daha çox aktuallıq kəsb etməyə başlayıb. Bu, ümumi təhsilin məqsədi, təhsilin bu pilləsinin reallaşdırıldığı təlim-tərbiyə müəssisələrinin qarşısında duran vəzifələrlə bağlıdır.

Müasir məktəbin fəaliyyətinin əsas prioritetlərini məktəblilərdə həyat üçün vacib kompetensiyaların aşılanması, fiziki cəhətdən sağlam şəxsiyyətin formalaşdırılması, təhsil alanların sağlam həyat tərzi sürməyə alışdırılması, məktəbin tərbiyə potensialının gücləndirilməsi, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi təşkil edir.

Bütün bu məsələlərin həyata keçirilməsi prosesini idarə etmək məktəb rəhbərlərinin öhdəsinə düşür. Bunun üçün isə məktəb rəhbərləri ilk növbədə idarəetmə elminin əsaslarını dərindən bilməli, bu sahədə yüksək səriştəyə, kollektivi məktəbin hədəflərinə doğru səfərbərliyə almaq üçün liderlik keyfiyyətlərinə malik olmalıdırlar.

Yeri gəlmişkən, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" ölkəmizdə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Sənəddə göstərilib ki, təhsil sahəsində idarəetmə islahatlarının başlıca istiqamətlərini təhsil prosesinin iştirakçıları arasında münasibətlər sisteminin, eləcə də tənzimləmə orqanlarının funksiyaları, səlahiyyətləri və cavabdehliyinin dəqiq müəyyən olunması, təhsil müəssisələrinin idarəetmə səlahiyyətlərinin və təhsilin nəticələrinə görə cavabdehliyinin artırılması, fəaliyyətin monitorinqi və qiymətləndirilməsi, təhsilin keyfiyyətini ölçən göstəricilər sisteminin təkmilləşdirilməsi, təhsilin maliyyələşdirilməsinin onun keyfiyyətinə yönəldilməsi, adambaşına maliyyələşdirmə mexanizminin tətbiqi və bu zəmində stimullaşdırıcı mexanizmlərin gücləndirilməsi, habelə maliyyələşmə mənbələrinin yetərliyinin təmin edilməsi təşkil edir.

Sözügedən sənəddə həmçinin insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olmaq üçün ölkəmizdə peşə təhsil sisteminin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi öz əksini tapıb. Strategiyaya uyğun olaraq, peşə təhsili sahəsində ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilib, peşə təhsili ölkə iqtisadiyyatının tələbatına uyğunlaşdırılıb, peşə təhsili infrastrukturu əsaslı şəkildə müasirləşdirilib, peşə təhsilinə cəlb olunan vətəndaşların sayı artırılıb. Təhsil sisteminin səmərəliliyində, onun nailiyyətlərinin formalaşdırılmasında müəllim amilinin, nüfuzunun həlledici əhəmiyyəti nəzərə alınmaqla bu sahədə əmək bazarının dəyişən tələblərinə cavab verən yeni peşələr üzrə kadr hazırlığının gücləndirilməsinə diqqət artırılıb.

Təbii ki, Strategiyanın qəbulundan keçən müddət ərzində digər strateji istiqamətlərdə olduğu kimi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı da xeyli səmərəli addımlar atılıb, təhsil sektorunda rəhbərliyə iddialı şəxslər üçün işə qəbulu mexanizmi yeniləşdirilib, təhsil müəssisəsi rəhbərlərinin menecerlik sahəsində biliklərə, kompetensiyalara yiyələnməsi üçün öyrədici təlimlər sisteminin tətbiqi reallaşdırılıb, məktəb ictimai qurumlarının idarəetmə prosesinə cəlbi yönündə təcrübə toplanmağa başlanılıb və s. Bütün bunlar öz müsbət nəticələrini göstərməkdə, təhsilin idarə olunması sisteminə töhfələrini verməkdədir.

### Yeri gəlmişkən...

■ **Təhsil strategiyasının uğurla həyata keçirilməsində və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasını təmin edən səmərəli idarəetmə mühüm rol oynayır.**

Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir. Elə bu səbəbdəndir ki, bu gün pedaqoji lüğətə menecment anlayışı əlavə edilib və təhsilin idarə edilməsinin nəzəri məsələləri ilə məşğul olan sahə - təhsil menecmenti pedoqogikanın əsas sahələrindən biri sayılır. Müasir anlamda təhsilin idarə olunması təhsil menecmenti kimi ifadə olunur.

Azərbaycan dilində menecment sözünün sinonimi "idarəetmə" terminidir. Ümumilikdə, menecment fərdi yanaşma əsasında təsir göstərməni nəzərdə tutmayan, rəhbər və tabeliyində olanların birgə fəaliyyətdə hədəflərə effektli şəkildə çatmaq üçün komfortlu əməkdaşlıq şəraitinin yaradılması əsasında olan idarədir. Menecment idarəçi fəaliyyətində insanlarla özü arasında qarşılıqlı hörməti əsas tutur, əmək fəaliyyətində insanlarla münasibəti inam və etibarlılıq əsasında qurur, özünü müvəffəqiyyətə yönəldərək, digərlərinin də buna müvafiq olması üçün şərait yaradır.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Reportaj

**Azərbaycan kino tarixi və mədəniyyəti dünya kino tarixi ilə eyni anda yaranmış, müxtəlif dövrlərdən günümüzə uzun bir yol qət etmişdir. Bu illər ərzində özündə milli mənəvi, ailə dəyərlərimizi, vətənpərvərliyi əks etdirən, onları ən düzgün formada cəmiyyətimizə aşılayan çoxlu sayda milli kinolarımız ərsəyə gətirilib. Bu gün Azərbaycan istehsalı olan filmlərin kinolentlərinin nüsxələri Dövlət Film Fondunda toplanıb saxlanılır.**



# Dövlət Film Fondunun bugünü...

Hafta.az-ın əməkdaşı milli kinomuzun zəngin keçmişini və bugününü qoruyub saxlayan həmin məkanın qonağı oldu. Gəzintimiz boyunca bizi Azərbaycan Dövlət Film Fondunun Kino Arxiv şöbəsinin müdiri Rəşad Qasımov müşayət etdi. O, Film Fonun fəaliyyəti haqqında bizləri bilgiləndirdi:

### Fond haqqında

**"Sovet dönəmində Azərbaycanda "Film Fondu" anlayışı olmayıb. Ona görə ki, həmin dövrdə çəkilən filmlər birbaşa olaraq Moskvaya təhvil verilirdi. Bizim bütün filmlərimiz də lent şəklində orada qorunub saxlanılırdı.**

Ölkəmiz müstəqillik əldə etdikdən sonra belə bir təşkilatın yaranmasına ehtiyac oldu. Nəticə etibarilə 1994-cü ildə Film Fondu yaradıldı. Film Fondu yaradıldıqdan sonra kinolentlərin qorunub-saxlanılması üçün xüsusi şəraitə də ehtiyac var idi. 2007-ci ildə Prezidentin sərəncamına əsasən hazırda yerləşdiyimiz binanın tikilməsi barədə göstəriş verildi və 2008-ci ildən bura köçdük. Bura filmlərin qorunub-saxlanılmasına görə nəinki sovet dönəmində və Avropada - dünyada ən yaxşı arxiv təşkilatlarından biri sayılır. Kinolenti kimyəvi tərkib etibarilə olduqca həssasdır və o, xüsusi temperatur, rütubət rejimində qorunmalıdır".

### Saxlanma otaqları

**Bina ilə tanışlığa ilk olaraq kinolentlərin saxlanıldığı otaqdan başladıq. Burada filmlər adları ilə deyil, xüsusi kodlarla yerləşdirilir.**

Kinolentlərinin saxlanıldığı otaqda temperatur bir qədər soyuq idi. Otaqda



bakteriyaları öldürən lampalar var. Burada insanların 5 dəqiqədən artıq qalması təhlükəlidir. Bundan başqa, otaqda rütubəti götürmək üçün avadanlıq və otaq temperaturunu tənzimləyən kondisioner də quraşdırılıb. Nəticə etibarilə otaqda quru, nisbətən də soyuq hava yaranır. Həmçinin bura giriş labirint formasındadır. Buna səbəb isə lenti götürən zaman otaqların hər birində 1-2 saat müddətində saxlamaq zəruriliyidir. Götürülən lent birbaşa olaraq normal hava şəraitinə çıxarılmır. Birbaşa götürülən lent kondensasiya nəticəsində məhv ola bilər.

### Haşiyə

**Binanın bütün mərtəbələrində kino istehsalında artıq istifadə edilməyən texnikalar eksponat şəklində sərgilənir. Burada vaxtilə kinoteatrlarda olmuş kinoproyektorlar, filmlərdə istifadə olunan maketlər - qatar, gəmi fiqurları qorunub saxlanılır.**

Rəşad bəy deyir ki, öz dövrünün qabaqcıl texnologiyası olan bu avadanlıqlar işləyən vaxt ətrafa xeyli səs yayırmış. Həmçinin bu avadanlıqlarda bir pozitiv nüsxəni 300-400 dəfə göstərdikdən sonra nüsxə sıradan çıxırmış. Müasir cihazlarda bir nüsxəni 4000-5000 dəfə də göstərmək heç bir problem yaratmır.

### Bərpa otağı

**Həmsöhbətimizin sözlərinə görə, fondda ən qızğın iş gedən otaq bərpa**



**otağıdır. Burada filmlərin köçürülməsi üçün avadanlıqlar var:**

"1 film qutusunda lentin uzunluğu, təqribən, 1000 metrdir. Həmin 1000 metrlik uzunluq kinonun 10 dəqiqəsini əhatə edir. Əvvəllər film lentləri dəmir qutularda saxlanılırdı. Azərbaycan Dövlət Film Fondu Beynəlxalq Kino Arxivləri Federasiyasının (FİAF) üzvüdür. Biz daim yeniliklər ətrafında birgə müzakirələr aparırıq. Belə nəticəyə gəldik ki, artıq plastik qutulara keçmək lazımdır. Axı həm də dəmir paslanan bir materialdır".

Bərpa otağında filmlərin rəng çalarlarını tənzimləmək üçün avadanlıq da var:

"Keçmiş lentlərdə olan filmlərin rəngləri çox oynayır. Buna səbəb isə zamanında yaxşı şəraitdə saxlanmamasıdır. Bir ara Azərbaycan filmləri efirə çox pis rəngləri qarışıq formada gedirdi. O filmlərin hər biri bu otaqda tərəfimizdən "color correction" olunur. Bunun üçün də bərpa otağında "color correction" avadanlığı var".

Bir müddət yaxşı şəraitdə qalmayan lent qatlandığı zaman sınır. Onun hansısa hissəsində problem yarandığı zaman, yapışdırıcı lent vasitəsilə bərpa olunur. Bu da saniyənin, təqribən, 1/24 anını əhatə etdiyi üçün birləşdirici lent vurulmuş hissə film izləyən zaman görünmür.

### Film Fondunda muzey

**Daha sonra binada muzey eksponatlarının saxlanıldığı otaqla da tanış olduq. Həmsöhbətimiz deyir ki, bizdə belə eksponatlar çoxdur, lakin bəzilərini bir otaqda cəmləşdirmişik ki, gələn qonaqlara göstərilsin.** Şüşə lövhələrin arxasında "Sehrli xalat" filmində istifadə edilmiş xalat, Azərbaycanın ilk səssiz filmlərini çəkən kamera, Leyla Bədirbəylinin, Xan Babayevin, Qəmər Salamzadənin evlərindən götürülmüş əşyalar, kinematoqrafçıların bu sənətə gəlmək üçün həvəskar olaraq istifadə etdikləri 16 və 8 millimetrlik kameralar var. Əşyaların böyük əksəriyyəti şəxsi arxiv fondlarından təqdim olunub. Azərbaycanın ilk kukla ci-



zgi filmində istifadə olunan kuklalar da otaqda nümayiş edilən qədim əşyalar arasınadır. Adətən, belə cizgi filmlər şəkillərin hərəkət olunması ilə çəkilirmiş. Ona görə də kukla cizgi filmlərində istifadə olunan kuklalar bir qədər fərqlidir. Onların detalları elə hazırlanıb ki, hər biri ayrılıqda hərəkət etdirilə bilir.

Saxlanan ən maraqlı eksponat isə tardır. O, Azərbaycanın ilk səsli filmi - "Mavi dənizin sahilində"də istifadə edilib və film rejissoru Səməd Mərdanovdur. Həmin tarı daha sonra Səməd Mərdanovun qardaşıqızı, Bakı Şəhər İcra Hakimiyyəti mətbuat xidmətinin keçmiş rəhbəri Nurana xanım bura hədiyyə edib. Tar öz tarixinin qədimiliyi ilə olduqca qiymətli eksponat hesab olunur. Otaqda, həmçinin keçmiş və müasir Azərbaycan filmlərinə verilmiş müxtəlif titullar nümayiş etdirilir. Maraqlı bir başqa cihaz isə "Dia filmdir". Cihaz sovet dönəmində orta məktəblərdə uşaqlara müxtəlif şəkilləri izah etmək üçün istifadə olunurmuş. O, indiki proyektorlardan fərqli olaraq video deyil, foto göstərir.

### Film Fondda kitabxana

**Azərbaycan Dövlət Film Fondunda kinematoqrafiyaya həsr edilmiş, sovet dönəmində çox az sayda buraxılmış kitablar saxlanılır.**

Burada Azərbaycan kinematoqrafına həsr edilmiş ilk kinoşünasların azsaylı kitablarını tapmaq mümkündür.

### Fondun foto və afişa arxivi

**Filmlərin ilk afişalarının saxlanıldığı xüsusi otaq da var ki, burada müxtəlif dövrlərdə çəkilmiş kinoların orijinal afişasını görə bilərik.**




Rəşad bəy bizləri "Nəsimi" filminin ilk afişası ilə tanış etdi. Həmçinin filmlərin fotoarxivlərinin də saxlanıldığı yerlər inzibati binada mövcuddur. Hər bir fotonun elektron versiyası olsa da, onların ilkin versiyaları xüsusi şəraitdə qorunur.

Maraqlı başqa məqam isə fondda xarici - Çin, Koreya, Rusiya, Amerika, İtaliya filmlərinin fotoarxivlərinin və kinolentlərinin olmasıdır.

"Bu yaxınlarda Meksikanın səfiri gəlmişdi. Onların köhnə bir filmi var idi. Daha sonra məlum oldu ki, həmin filmin kinolenti bizdə daha keyfiyyətli formadadır, nəinki özlərində...".

### Film Fondun zalı

**Binada kinolentdə olan nüsxələrə baxmaq üçün zal da var ki, bəzən müxtəlif tədbirlər məhz burada keçirilir.**

Zalın sağ küncünə ilk baxışdan sıradan görünən, lakin əslində olduqca qiymətli piano qoyulub. Bakıda illəröncə mövcud olmuş "Form kinoteatr"ında səssiz filmləri həmin piano ilə müşayiət ediblər.

### Müasir proyektorlar

**Fondda mövcud olan müasir proyektorlarla da tanış olduq. Hansı ki, onları qızmağa qoymayan xüsusi havalandırma sistemləri var.**

Proyektorların ən qiymətli hissələri isə onların obyektivləri - lampaları sayılır.

### Kinolentlərin yuyulması

**Son olaraq isə fonddakı kinolentlərin "yuyulduğu" otaqla tanış olduq. Təbii ki, olduqca həssas sayılan kinolentlər ənənəvi yuma üsulu ilə deyil, xüsusi avadanlıqlar vasitəsilə təmizlənir.**

Dövlət Film Fondundakı ekskursiyamız sona çatdı. Foyesində köhnə kinoçəkiliş texnikası saxlanılan bu fərqli-fərqli məkan zəngin kino mədəniyyətimizi özündə əks etdirən aynadır, sanki.

✍ Banu

# "Azərbaycanfilm" müharibəyə dair filmlər hazırlayır

Kino

*Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası 1920-ci ildə təsis edilib. Hazırda qurum Mədəniyyət Nazirliyinin tərkibində öz fəaliyyətini davam etdirir. Hafta.az-ın əməkdaşı "Azərbaycanfilm"in inzibati binasında oldu. Binanın dar və uzun dəhlizi, köhnə dizayn edilmiş divarları, film qoxan ab-havası fərqli bir aura yaratmışdı. Milli kinolardan fraqmentləri özündə əks etdirən ağ-qara fotolar asılmışdı hər iki tərəfdən. Qısa gəzintimiz zamanı bizə "Azərbaycanfilm"in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Lətif Lətifsoy bələdçilik etdi.*



**Fariz Əhmədov,**
Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının baş direktoru

Zəngin, lakin bir o qədər qarışıq olan arxiv otağında xeyli maraqlı geyim və əşya var idi. Burada mövcud olan ən maraqlı əşyalardan "Qayınana" filmində istifadə edilən güzgü, "Cavadxan", "Hökmdarın taleyi" filmlərində istifadə edilən dəbilqələr, "Qərib cinlər diyarında"dakı toppuzlar, "Üzeyir ömrü" filmində geyinilmiş paltarları misal çəkmək olar.

■ **Daha sonra Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının baş direktoru Fariz Əhmədovla həmsöhbət olduq. Həmin müsahibəni sizlərə təqdim edirik.**

***- Fariz müəllim, Vətən müharibəsindən sonra "Azərbaycanfilm"in fəaliyyəti, bu istiqamətdə görülən və görüləcək işlər haqqında nə deyə bilərsiniz?***

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən elan olunmuş "Böyük qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsinin qalibləri arasında "Müharibənin uşaqları" və "Fulya" adlı sənədli film layihələri "Azərbaycanfilm" tərəfindən istehsal ediləcəkdir. "Müharibənin uşaqları" sənədli filmi müharibə dövründə Gəncə, Bərdə, Tərtər və digər bölgələrimizə atılan raket zərbələri nəticəsində zədə almış uşaqların, postmüharibə dövründə psixoloji reabilitasiyası üçün Kukla Teatrının həmin bölgələrə qastrola çıxması ilə ümidverici filmdir. Filmin rejissoru və ssenari müəllifi Leylaxanım Qənbərlidir. "Fulya" sənədli filmi isə müharibə dövrünün bütün həqiqətlərini, erməni barbarlığının yıxıcı təsirlərini dünyaya ilk səsdən çatdıran "CNN Türk"ün müxbiri Fulya Öztürkün həmin bölgələrə yenidən səyahəti ətrafında baş tutacaq. Filmin rejissoru və ssenari müəllifi Tahir Tahiroviçdir.

> Yeni kino siyasətində beynəlxalq film şirkətləri ilə müştərək istehsala olduqca əhəmiyyət verilir

Bundan əlavə qeyd etməliyəm ki, Bakı Media Mərkəzi ilə birgə hazırladığımız növbəti layihə "Biz" adlı sənədli filmdir. Bu filmin layihəsi 44 günlük Vətən müharibəsi dövründə öz telefonlarında videoçəkilişləri ilə və ümumən diqqətəlayiq, trendə düşmüş insanlardır. Daha sonra, "Görünməyən qəhrəmanlar" adlı 5 sənədli-salnamə janrında filmdən ibarət layihəmiz, artıq Mədəniyyət Nazirliyi tərəfindən təsdiqlənib. Bu filmlər hər biri 44 dəqiqə olmaqla, müxtəlif qoşun növlərinin qəhrəman zabit və əsgər heyətinin 44 günlük müharibə müddətində keçdiyi şərəfli və müzəffər döyüş yolundan bəhs edəcək. Böyük Zəfərimizin milli kinoda növbəti mühüm əksi hal-hazırda istehsal öncəsi mərhələsində olan və bu ilin iyul-avqust aylarında çəkilməyi planlaşdırılan "Həyat deyəsən gözəldir" bədii filmidir. Filmin ssenari müəllifi və rejissoru Xalq artisti Vaqif Mustafayevdir.

***- Bəs pandemiya dövründə qurumun fəaliyyəti nə cür təşkil edildi? Pandemiyanın işlərinizə hansı təsirləri oldu?***

- Təəssüf ki, bütün dünyada tüğyan edən koronavirus və buna paralel qapanmalar, ölkəmizdə bir çox sahələrdə olduğu kimi, kino sənayemizə də dərindən təsir göstərdi. Film istehsalı, nümayişlər dayandırıldı və kinoteatrlar qapandı. Ümidverici hal odur ki, artıq bir çox dünya ölkələri tədricən öz ahənginə qayıdır və biz də öz növbəmizdə mövcud qaydalara uyğun şəkildə fəaliyyətimizi təşkil edirik.

***- Axırıncı dəfə quruma nə vaxt maliyyə vəsaiti ayrılıb? Vəsaitlər daha çox nələrə xərclənib?***

- "Azərbaycan Kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 01 mart 2019-cu il tarixli Sərəncamı çərçivəsində Mədəniyyət Nazirliyinə müvafiq tapşırıqlar verilmiş və ayrılan büdcə ilə 30 ildən artıq bir müddətdən sonra kinostudiyamızın çəkiliş avadanlıqlarının bazası tamamilə yenilənərək, ən son standartlara cavab verən kameralar, işıqlandırma texnikaları və digər lazımi qurğularla təmin edilmişdir. Bu, hazırda bizim üçün ən sevindirici haldır.

***- Mədəniyyət naziri və "Azərbaycanfilm"in rəhbəri dəyişdikdən sonra fəaliyyət istiqamətinizdə hansı dəyişikliklər oldu? İslahatlar həyata keçirilirmi?***

- Bunu mütləq vurğulamalıyam ki, yeni Mədəniyyət nazirimiz dünyadakı kino sənayesi ilə yaxından maraqlanır. Onun ən mühüm addımlarından biri, bu ilin mart ayında nazirliyin kino şöbəsinin müdiri ilə birgə, bu sahədə olduqca ixtisaslaşmış qardaş ölkə Türkiyəyə səfəri və yaxın zamanda müştərək film layihələri üçün Türkiyənin ən böyük 18 film istehsalı şirkətinin rəhbərləri ilə görüşərək ikili müqavilələrə imza atmasıdır. Bu baxımdan, yeni kino siyasətində beynəlxalq film şirkətləri ilə müştərək istehsala olduqca əhəmiyyət verilir. Məlumat üçün qeyd edə bilərəm ki, "Azərbaycanfilm"in istehsal edəcəyi yeni filmlərdən Elçin Musaoğlunun "Məryəm" ("Sinema evi" şirkəti), Asif Rüstəmovun "Mərmər soyuğu" (Fransa) bədii filmləri və Tahir Əliyevin "Fulya" (Türkiyə) adlı sənədli filmi birgə istehsal layihələridir. Kinostudiyada isə köklü kadr islahatları gedir, ictimaiyyətlə əlaqələr, beynəlxalq əlaqələr və layihələndirmə şöbələrimizə dəvət etdiyimiz gənc, ambisiyalı əməkdaşlarımızla qarşıdakı hədəflərə daha sürətlə yaxınlaşırıq. İdarəetmə modeli və strukturumuz isə beynəlxalq praktikaya əsaslanaraq yenilənir. Beynəlxalq film festivalları və təşkilatları ilə əlaqələrimizi gücləndiririk. Bu ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə bağlı "Xosrov və Şirin" 12 seriyalı televiziya layihəsinin istehsalöncəsi hazırlıqları davam edir. İctimai TV ilə birgə hazırladığımız 24 hissəli "Bizim kino" layihəsi isə davam edir və kinosevərlərin sevgisini qazanıb. Bundan əlavə, Mirsadıq Ağazadənin "Eviniz abad" adlı bədii filminin çəkiliş materiallarından "Köşk" adlı 5 seriyadan ibarət mini-serial hazırlanır.

Daha sonra qeyd edə bilərəm ki, 17 klassik filmimizin ingiliscə subtitrləşdirmə işləri yekunlaşmaq üzrədir. Ən əsası isə filmlərin istehsalöncəsi mərhələsindən son mərhələyədək olan (pre-production, production, post-production) bütün dövrünün, produktiv, standartlara uyğun və hər cəhətdən şəffaf təşkili üçün maksimum əmək sərf edəcəyik. İzləyicilərimiz isə fəaliyyətimizə dair yeniliklərdən mütəmadi olaraq, audio-vizual məzmunlarla məlumatlandırılır.

***- Mövcud çətinliklər nələrdir?***

- Bildiyiniz kimi, studiyanın mövcud binaları 1956-cı ildə tikilib, bu səbəbdən qarşıda duran başlıca məsələrdən biri də təmir-tikinti işləridir. Bundan əlavə, hal-hazırda kinostudiyanın yenilənmiş çəkiliş avadanlıqları bazasının bizə yaratdığı imkanlarla 2 bədii və 2 sənədli filmin istehsalını paralel şəkildə təşkil edə bilirik, lakin missiyamız bu rəqəmləri yüksəltmək və digər çatışmazlıqları da aradan qaldırmaqdır.

***- Hazırda binada təmir gedir, təmirdən sonra hansı yeniliklər olacaq?***

- Bütünlükdə təmir və yenidənqurma üçün layihələndirilmə aparılıb, lakin təmir işləri hələ başlamayıbdır. Ümid edirik ki, önümüzdəki zamanda buna nail olacağıq.

✍ Banu

**Xüsusi müxbir**

# "Ermənilərin məscidləri dağıtması..."

## Ərəb ölkələrində böyük rezonans yaratdı

***Azərbaycanın tarixən Yaxın Şərq bölgəsi xalqları ilə sıx mədəni-ticarət əlaqələri olub və günümüzdə bu münasibətlər siyasi, iqtisadi-ticarət, elmi-mədəni müstəvidə daha da inkişaf edib, xüsusilə də Misirlə. Ərəb aləminin ən böyük və qədim subyekti olan bu dövlət hazırda müasir nəslin nağıl dünyası, səyyahlarımızın mütləq gəzəcəyi sirli məkan, gənclərimizin ali təhsil alacağı oturuşmuş elm ocağıdır. Siyasi-iqtisadi müstəvidə də Azərbaycanın əsas tərəfdaşlarından olan Misir, təəssüf ki, uzun müddətdir Fələstin-İsrail, Liviya, bir az şimalda Suriya, İraq, şərqində Yəmən münaqişələri ilə sarılmış durumdadır. Hansı ki, elə bu münaqişəli ölkələrlə Misir Ərəb dünyasının timsalında bir bütündür - onları bir-birindən ayrı təsəvvür etmək olmur...***

Bu gün mətbuat da xalqlar və dövlətlərarası əlaqələrin inkişafında mühim rol oynamaqdadır. Xüsusilə də ayrı-ayrılıqda jurnalistlər öz peşə bacarıqlarından asılı olaraq böyük töhfələr verirlər.

**Bu müstəvidə, AZƏRTAC-ın Şimali Afrika və Yaxın Şərq ölkələri üzrə xüsusi müxbiri Oqtay Bayramovun da işini alqışlamaq lazımdır.**

Misirdə - Qahirədə mənzillənsə də, bütün bölgə ölkələrində baş verən hadisələri vaxtında və təfsilatlı şəkildə azərbaycanlı oxuculara çatdırır. Özü də sadəcə xəbər vermir, onu tam diplomatik tələblər əsasında hazırlayır ki, Azərbaycanın və mediasının imicinə söz gəlməsin. Üstəlik, fəaliyyəti dövründə Azərbaycan həqiqətlərini Misir və digər ərəb ölkələrinin ictimaiyyətinə çatdırılmasında əvəzsiz işlər görüb. Bəs bu qədər ağır zəhmət, xüsusilə də Yaxın Şərq kimi qaynar regionda çalışmaq jurnalist həmkarımıza çətin deyilmi? Gəlin cavabı müsahibimizin öz dilindən eşidək.

- AZƏRTAC-ın müxbir məntəqəsi Qahirədə yerləşir. Şimali Afrika və Yaxın Şərq ölkələrində də baş verən mühüm hadisələr, səfirliklərin və diaspor təşkilatlarının fəaliyyəti haqqında materiallar hazırlayıram. Bütün bunlar asan deyil, amma diplomatik missiyalar, yerli media və diaspor üzvləri ilə əlaqələr çətinliklərin öhdəsindən gəlməyə imkan verir.

***- Koronavirus dünyanı əsirə çevirdiyi bir vaxtda, Misir kimi qələbəlik bir dövlətdə olmaq sizə çətin deyil? Doğrudur, 110 milyonluq Misirdə yoluxma sayı, hətta Azərbaycandakından da çox aşağıdır, amma yenə də, ölkədə durum necədir, küçəyə çıxma, iş yerlərinin fəaliyyətinə və sair icazə verilirmi?***

- Misirə pandemiyanın ilk günlərində təyin olunmuşam. Rəsmi rəqəmlərə görə, hazırda bu ölkədə sutkada ortalama 1000 yoluxma, 60 ölüm faktı qeydə alınır. Küçəyə çıxma qadağası axşam saat 9-dan sonra qüvvədədir. İş yerləri də bu vaxta qədər açıqdır. Mayın 19-da Misir hökuməti park və çimərliklərin də açılmasına icazə verib. buna baxmayaraq, vaksinasiyanın həcmi Azərbaycanda olduğundan çox aşağıdır.

***- Misir və qonşu ölkələrlə Azərbaycan arasında sıx münasibətlər mövcuddur. Misirdə kiçik də olsa Azərbaycan icması var. Seymur Nəsirov, İsra Adel kimi dostlarımız var və üstəlik, bu ölkədə Azərbaycan dilini öyrənən böyük dost nəsil yetişməkdədir. Onlarla əməkdaşlıq edirsinizmi, münasibətlərinizi necə qurursunuz?***

- Açığını desəm, çox gözəl alim, səmimi insan olan Seymur müəllim AZƏRTAC-la daha çox əməkdaşlıq edir və bu, müştərək işimizə müsbət təsir göstərir. Bəli, burada azərbaycanlıların sayı barmaqla sayılan qədərdir. Əsasən tələbələr və misirlilərlə ailə qurmuş xanımlarımız. Onların Azərbaycan üçün gördüyü işlər böyükdür.

Tez-tez telekanallara çıxır, ölkəmizi təbliğ edirlər. Misir - Azərbaycan Dostluq Mərkəzində, habelə Qahirə və əl-Əzhər universitetlərində Azərbaycan dili kursları fəaliyyət göstərir. Bu kurslarda iştirak edən ərəb gənclər dilimizi, mədəniyyətimizi öyrənir, hətta məzun olduqda Azərbaycanla bağlı elmi tədqiqatlar da aparırlar.

***- Nə əcəbsə, Misirdə Azərbaycanı sadə ictimaiyyət çox az tanıyır və ya heç tanımır. 2016-cı ildə Qahirədə, Gizada, Şarm əl-Şeyxdə səfərdə olduğum zaman küçədə insanlarla söhbət elədim, Azərbaycan barədə heç nə bilməmələri məni üzdü doğrusu. Mən bu məsələni Misirin Ali Təhsil Naziri ilə görüşdə də vurğuladım. Sizcə, səbəb nədir ki, insanlar tarixən dost olan bir ölkə - Azərbaycan haqda bu qədər məlumatsızdırlar və nə edə bilərik ki, onlar ölkəmizi tanısınlar?***

- Bilirsiniz, Misir ziyalıları, mədəniyyət xadimləri Azərbaycanı kifayət qədər yaxşı tanıyırlar. Sizin də qeyd etdiyiniz kimi, 110 milyon əhalisi olan ölkədir və burada hər kəs normal təhsilə, nisbətən gənc ölkələrə dair biliklərə malik deyil. Səfirliyimiz və diaspor təşkilatımız da məhz bu məqsədlə Azərbaycan dili kursları açır, eyni zamanda Misirin tanınmış ictimai-siyasi xadimlərini dostluq cəmiyyətinin fəaliyyətinə cəlb edir. Burada təhsil alan tələbələrimiz də sosial şəbəkələrdə ölkəmizin tanıdılmasında fəal iştirak edirlər.

***- Misirli jurnalistlərlə təmaslarınız necədir, ölkələrimiz arasında məlumat mübadiləsi edirsinizmi? Yeri gəlmişkən, məhz Misir mətbuatı vasitəsilə Azərbaycanı təbliğ etmək mümkündür. Bu barədə görüşlərinizi alaq...***

- Misirli jurnalistlərlə fəal əməkdaşlıq edirəm. MENA və "Asiaelyoum" xəbər agentlikləri, Aldiplomacy, Rayetmisr, "Əl Masr Əl Yom" və digər media orqanlarının rəhbərləri ilə mütəmadi görüşlər keçirir, AZƏRTAC-ın xəbərlərini onlara göndərirəm. Sevindirici haldır ki, son vaxtlar ərəbşünas alimlər, azərbaycanlı jurnalistlər də Misir mətbuatında məqalələrlə çıxış edirlər. Misirli jurnalistlər bu əməkdaşlığa böyük maraq göstərirlər.



**Oqtay Bayramov,**
AZƏRTAC-ın Şimali Afrika və Yaxın Şərq ölkələri üzrə xüsusi müxbiri

***- Regionun digər ölkələrində baş verən hadisələri necə işıqlandırırsınız, hadisə yerinə ezam olunursunuz, yoxsa yerli mənbələrdən alırsınız xəbərləri? Məsələn, Süveyş kanalında bu yaxınlarda baş vermiş gəmi qəzası ilə bağlı ən dəqiq məlumatı sizdən aldığımız kimi, hazırda Fələstində olub-bitənlər, Liviyada yaşanan hadisələr, yaxud da Misirin Efiopiya ilə su böhranına dair dəqiq-doğru məlumatları da sizdən almaq istərdik. Bax, bu xəbərləri yerindəcə Azərbaycana ötürmək imkanlarınızı bilmək istərdik...***

- Diqqətinizə çatdırım ki, dövlət agentliyinin təmsilçisi kimi, region ölkələri ilə bağlı hadisələri dövlətimizin xarici siyasət kursu prizmasından işıqlandırıram. Yəni Misir, Liviya, Yəmən və digər ölkələrlə bağlı materialların hazırlanması böyük məsuliyyət tələb edir. Ərəb ölkələrinin Bakıdakı səfirlikləri AZƏRTAC-ın xəbərlərini diqqətlə izləyirlər və çalışmaq lazımdır ki, bizim yazılarımız həmin dövlətlərlə əlaqələrə töhfə versin. Yaxın Şərq və Şimali Afrikada çoxlu sayda münaqişələr və mübahisəli məsələlər mövcuddur. Onlarla bağlı istər xəbər, istərsə də analitik məqalə hazırlayanda, ilk növbədə, Azərbaycan dövlətinin xarici siyasət kursu nəzərə alınmalı, materiallar tərəflərin hər birinin mövqeyini əhatə etməlidir.

***- Azərbaycanda jurnalistlər üçün "Vahid kart sistemi"nin tətbiqi məsələsi müzakirə edilir. Vahid kartın el dili İlə desək, reketçiliyin, eləcə də daxildən və hətta xaricdən maliyyələşdirilərək jurnalistlərə təsir edilmənin qarşısını alacağı düşünülür. Misirdə və digər bölgə ölkələrinin mediasında kart məsələsi necə çözülür, jurnalistlər ənənəvi kartla fəaliyyət göstərirlər, ya necə? Bir də bu ölkələrdə media nümayəndələrinə dövlət tərəfindən hər hansı güzəştlər-filan verilirmi, hansı ki, onların Azərbaycan mediasında da tətbiq olunmasını məqsədəuyğun görərdiniz?***

- Mən bundan əvvəl 8 il Türkiyədə AZƏRTAC-ın xüsusi müxbiri qismində fəaliyyət göstərmişəm. Qardaş ölkədə də, Misirdə də "Vahid kart" sistemi mövcuddur. Misirdə jurnalistlərin reketçiliyi ilə bağlı problem yoxdur. Eyni zamanda, media nümayəndələrinə dövlət orqanları tərəfindən böyük ehtiram var, hətta, deyərdim ki, əcnəbi jurnalistlərə diplomatlardan da çox hörmət göstərilir. Burada muzeylərə giriş onlara pulsuzdur, Dövlət İnformasiya İdarəsi xarici mübirlərin problemləri ilə maraqlanır. Əslində, Azərbaycanda da media nümayəndələrinə böyük diqqət diqqət göstərilir, onlar pulsuz mənzillə təmin edilir. Bu, dünyanın heç bir ölkəsində yoxdur.

***- Məsələn, mətbuat əhlinin timsalında, hansısa hadisə yerinə gedirsiniz, yaxud başqa bir məkana, maraqlıdır, polis sizi saxlaya bilərmi və ya saxladıqda güzəşt edirmi? Misirdə jurnalist olmanın bir üstünlüyü varmı?***

- Qeyd etdiyim kimi, Misirdə əcnəbi jurnalistlərə xüsusi diqqət var. nəzərə almaq lazımdır ki, artıq 4 ilə yaxındır bu ölkədə fövqəladə vəziyyət rejimi mövcuddur. Fotoşəkil çəkdikdə polis sizə yaxınlaşır, hətta keçədə belə video çəkilişi üçün icazə almaq lazımdır. Ötən il Misir haqqında mənfi kontekstdə məqalələr yazmış üç əcnəbi jurnalistin akkreditasiyası ləğv olunub.

Qeyd edim ki, dövlətlərarası münasibətlərin gərgin olması səbəbindən internetdə Türkiyənin Anadolu agentliyinə, Qətər mediasına giriş bağlanılıb. Misir hökuməti əcnəbi jurnalistlərin fəaliyyətinə şərait yaratmaqla yanaşı, onların fəaliyyətini də diqqətlə izləyir.

***- Bildiyim qədər, Misirdə bizimlə müqayisədə kifayət qədər böyük erməni diasporu var və özü də onlar orada oturuşmuş haldadırlar. Buna rəğmən, Azərbaycan - Ermənistan məsələsinə münasibət Misirdə, eləcə də fəaliyyət dairənizdə olan digər qonşu ölkələrdə necədir?***

- Bəli, bu ölkədə 20 mindən çox erməni yaşayır və onlar Misir vətəndaşıdırlar. Livanda, İordaniyada da Osmanlı imperiyası dövründə köç etmiş ermənilər çoxdur. Onların qəzetləri, kilsələri fəaliyyət göstərir, ermənilər dövlət orqanlarında təmsil olunurlar. Qeyd etməliyəm ki, erməni təbliğatına rəğmən, Misir və digər ətraf ölkələrdə Azərbaycana münasibət çox yaxşıdır. Bizim ədalətli mövqeyimiz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində dəstəklənir, ermənilərin səylərinə baxmayaraq, Misir mətbuatı Azərbaycanın haqlı olduğunu yazır.

Bir kiçik nüansı qeyd edim: misir və digər ərəb ölkələri dini dəyərləri daha üstün tuturlar. Bu baxımdan ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində məscidləri və İslam abidələrini viran qoyması, təhqir etməsi barədə xəbərlər və fotoşəkillər bu ölkələrin ictimaiyyətində böyük rezonans yaratdı. Düşünürəm ki, bu istiqamətdə təbliğat öz bəhrəsini verdi. Ərəbə deyəndə ki, ermənilər infrastrukturu, yaxud inzibati binaları dağıdıb, o qədər də maraq göstərmir, amma məsciddə donuz saxlanılması xəbərləri onu hədsiz dərəcədə hiddətləndirir.

***- Açığını desəm, 44 günlük Vətən müharibəsi dövründə Misirin qardaş Türkiyə və ya Pakistan kimi rəsmi mövqeyini açıq səsləndirməməsi bizi üzdü. İnsafən, müharibədən iki ay öncə ermənilər Tovuz istiqamətində sərhədlərimizə hücum edəndə, Misir XİN səviyyəsində konkret bəyanat vermişdi - Ermənistanı Azərbaycan torpaqlarından çıxmağa çağırmışdı...***

- Düşünürəm ki, Vətən müharibəsindən dərhal sonra misirli parlamentarilər, ictimai-siyasi xadimlərin cənab Prezidentə Qələbə münasibətilə ünvanladıqları təbrik məktubu sevindirici oldu. Misir və Körfəzin ərəb ölkələrinin siyasi xadimləri dəfələrlə bəyan ediblər ki, biz İƏT-in müharibə ilə bağlı bəyanatını dəstəkləyirik. Əlbəttə, Pakistan və Türkiyə qədər dəstək olmadı, amma İslam aləmi Azərbaycanla həmrəydir. Düşünürəm ki, Ankara və İslamabadın mövqeyi qardaş, qalan ölkələrin isə dost dəstəyidir. Qardaş isə, əlbəttə, hər zaman hər kəsdən yaxındır.

***- Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri gedir. Sizin də bildiyiniz kimi, Türkiyə, Pakistan, İsrail və İtaliya şirkətləri azad edilmiş bölgələrimizin tezliklə canlandırılması işində Azərbaycanla birlikdə çalışırlar. Necə bilirsiniz, ənənəvi dostumuz olan Misir dövləti quruculuq prosesində hansı formada töhfələrini verə bilər? Ümumiyyətlə, Misir bu prosesdə həvəsli görünürmü?***

- Dost ölkə olan Misirin işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərində iştirakı ilə bağlı hər hansı açıqlama yoxdur. Diqqətinizə çatdırım ki, bu ölkənin iri şirkətləri xaricdə həyata keçirilən layihələrdə o qədər də fəal iştirak etmirlər. Onların, əsasən, Şimali Afrikada, xüsusən Liviya və Sudanda bu cür fəaliyyətləri var.

*Vüsal Tağıbəyli*



*"Misir ziyalıları, mədəniyyət xadimləri Azərbaycanı kifayət qədər yaxşı tanıyırlar*

*"Onların qəzetləri, kilsələri fəaliyyət göstərir, ermənilər dövlət orqanlarında təmsil olunurlar*

---



**■ "Avropa məhkəmələrinə olan müraciətlər və oradan gələn qərarların çoxu ilə tanış olmuşam". Bunu deputat Siyavuş Novruzov deyib. Deputat bildirib ki, bu qərarların 90%-i prosesin düzgün aparılmadığına görə qəbul edilib:**

"Məsələnin mahiyyəti ilə bağlı qərarlar deyil. Ona görə də bu məsələ ciddi nəzarətə alınmalıdır. Digər tərəfdən, məhkəmə qərarları icra edilmir. Biz məhkəmələrə elə səlahiyyət verməliyik ki, bunun icrasına nəzarət edə bilsin. Qərar icra edilməsə, məhkəmə bununla bağlı da məsələ qaldıra bilsin. Digər məsələ - ötür-ötürə son qoyulmalıdır. Elə proseslər var ki, 5 ildir, davam edir. Bir məhkəmənin qəbul etdiyi qərarı digər məhkəmə ləğv edirsə, əvvəlki qərarı verən hakimin maaşından tutulmalıdır.



**■ "Qarabağ savaşında əldə etdiyimiz möhtəşəm qələbədən sonra bir sıra zəruri infrastruktur layihələri ilə bağlı addımlar atılır". Bunu deputat Fazil Mustafa deyib.**

Deputat bildirib ki, amma əsas məsələ struktur dəyişikliyi ilə bağlı addım atılmasıdır: "Buna indi başlamalıyıq. Bir sıra rayonları birləşdirməliyik. Qarabağla bərabər, digər rayonlarda da buna gedilməlidir.

İlk olaraq, buna Bakıdan başlamalıyıq. Məmurların sayı azaldılmalıdır. Rayonlarda bələdiyyələrin səlahiyyəti artırılmalıdır". Deputat qeyd edib ki, Şamaxı yolu üzərində Türk şəhidliyi var: "Ancaq yolun yenidən təmirindən sonra orada maşın saxlamağa yer saxlamayıblar. Buna bir çıxış yolu tapılmalıdır".



**■ Azərbaycanda əlilliyin ümumi göstəricisi əhaliyə nisbətdə 6 faiz təşkil etsə də, pensiya sistemində bu 30 faiz təşkil edir.**

Bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədr müavini Mətanət Məmmədova deyib. Onun sözlərinə görə, bu digər ölkələrin təcrübəsi ilə nisbətdə həddindən artıq böyük rəqəm təşkil edir: "Son illərdə 7 mindən çox saxta əlillik aşkarlanıb və ləğv edilib. Bu işlər mütəmadi olaraq aparılır və aparılacaq. Bizim istiqamətimiz bundan ibarətdir. Bu, sosial sahədə aparılan islahatların bir növüdür. Biz istəyirik ki, kimin haqqıdırsa, onların əlillik təyinatı aparılsın, sui-istifadə halları aradan götürülsün".




**■ 2021-ci ilin yanvar-aprel aylarında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı kredit portfeli 1,153 milyard avro təşkil edib. Kredit portfeli 35 proqramın reallaşdırılması üçün nəzərdə tutulub.**

Kredit portfelinin 78 faizi və ya 899 milyon avro dayanıqlı infrastruktura investisiyalara, 20 faizi və ya 234 milyon avro sənaye, ticarət və aqrar sektora investisiyalara, 2 faizi və ya 20 milyon avro maliyyə təşkilatlarına investisiyalara yönəlib. Ötən il AYİB Azərbaycanda 6 layihənin reallaşdırılması üçün 17 milyon avro kredit ayırıb, son dörd ildə bu göstərici 34 layihə üzrə 857 milyon avro təşkil edib.



**■ ABŞ Prezidenti Cozef Bayen İsrail Baş naziri Binyamin Netanyahuya təzyiq göstərərək Yəhudi dövlətinin səlahiyyətlilərindən Fələstin HƏMAS hərəkatı ilə barışığa razılıq verilməsini tələb edib. Bu barədə "CNN" televiziya şirkəti məlumat verib.**

Bildirilir ki, mayın 19-da telefon danışığı zamanı amerikan administrasiyasının başçısı İsrail baş nazirinə barışıq barədə müddət açıqlayıb. "CNN" mənbələri qeyd edirlər ki, C.Bayden Netanyahu ilə danışarkən əsəbini gizlətməyib və söhbətdə əvvəlkindən daha "birbaşa, açıq və qərəzsiz" ifadələr işlədib. Həmin gün Ağ Evin mətbuat xidməti Cozef Baydenin Netanyahudan İsrail və Fələstin arasındakı gərginliyin ciddi şəkildə azalmasını gözlədiyini söyləyib.



**■ Pirallahı Sənaye Parkının rezidenti "Diamed Co" MMC-nin şpris istehsalı müəssisəsi fəaliyyətini genişləndirir.**

İqtisadiyyat Nazirliyindən hafta.az-a verilən məlumata görə, şirkət yaxın günlərdə istehsal etdiyi məhsullar sırasına daha 5 çeşid məhsul əlavə etməklə, məhsullarının sayını 9-a çatdıracaq. Yeni məhsullar - insulin şprisləri, 1 qramlıq şprislər, müxtəlif ölçülü kəpənəklər, damardaxili kateterlər və sistem setləridir. Hazırda müəssisədə 2, 5, 10 və 20 qramlıq olmaqla 4 növ şpris istehsal edilir. Zavodda 60-a yaxın işçi çalışır. Zavodun 3 növbəli iş rejiminə keçməsi ilə əlaqədar işçi sayının artırılması nəzərdə tutulur.

## Sosial

# Ən optimal variant 50-70 nəfərlik mərasimlərin təşkilidir

***TƏBİB-in xəstəliklərin profilaktikası və nəzarəti departamentinin müdiri Yaqut Qarayeva karantin tədbirlərinin yaxın günlərdə bir qədər sadələşdiriləcəyi ilə bağlı məlumat verib. O bildirib ki, hazırda insanların kütləvi toplaşmasına səbəb olan mərasimlər, şadlıqların necə keçirilməsi ilə bağlı məsələlər müzakirə edilir, bunlarla bağlı bəlli qaydalar hazırlanır. TƏBİB sözçüsü yaxın günlərdə ictimai nəqliyyatdan istifadə və digər istiqamətlərdə də yeni qərarların gözlənildiyini vurğuladı. Bəs görəsən, qəbul ediləcək yeni qərarlara əsasən toylar nə cür təşkil oluna bilər? Sözügedən yumşaldılmalar pandemiyanın gücünə nə cür təsir edəcək? Hazırda tibbi cəhətdən daha çox nələrə diqqət olunmalıdır?***

**■ Hafta.az-ın əməkdaşı məsələnin müzakirəsi ilə bağlı olaraq Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva ilə həmsöhbət oldu.**

O bildirdi ki, bir ay öncəki dövrlə müqayisədə ölkəmizdə COVID-19 pandemiyası ilə əlaqədar vəziyyət stabilləşməyə doğru gedir: "Əgər bu gün yeni yoluxanların sayı 300-400, aktiv xəstələrin sayı isə 8000-9000 nəfər arasıdırsa, bir ay öncə bu rəqəm 1000-1500 yoluxma, 30-32 min aktiv xəstə səviyyəsində idi.

Prosesin dinamikası təhlil olunduqda bir daha görürük ki, tətbiq olunan məhdudiyyətlər yoluxmanı azaldıb, vəziyyətin stabilləşməsinə kömək edib. Eyni zamanda, ölkədə 2 milyona yaxın vaksinin vurulması da pandemiyanın mənfi təsirlərinin nəzarətdə saxlanılmasına kömək edib. Unutmamalıyıq ki, COVID-19 hava-damcı yolu ilə yayılan virusdur və yoluxmanın artıb-azalması birbaşa insanların özündən asılıdır. Vaksinasiya prosesinin getməsi, yoluxmanın aşağı düşməsi insanlarda tam arxayınlıq yaratmamalı, ehtiyat tədbirləri əldən verilməməlidir".





**Sədaqət Vəliyeva,**
Milli Məclisin deputatı

S.Vəliyeva bildirir ki, vaksinasiya prosesi sürətləndikcə, yoluxma sayı azaldıqca, məhdudiyyətlərin aradan qaldırılması da olacaq: "Söhbət açıq havada maskalardan istifadənin aradan qaldırılmasından, toy, yas mərasimlərinin keçirilməsinə, yay mövsümündə çimərliklərdən istifadəyə icazə verilməsindən və başqa tədbirlərdən gedir. Onu da unutmayaq ki, məhdudiyyətlər aradan qaldırıldıqca insanlarımız daha da məsuliyyətli olmalıdır. Əgər sabah açıq havada maskasız hərəkətə, toy, yas mərasimlərinin keçirilməsinə icazə verilərsə belə, yenə də bu vəziyyətdən sui-istifadə etmək olmaz. Bir daha xatırlatmaq istəyirəm ki, bu virus sürətli yoluxucu və yayılma xüsusiyyətlərinə malik olduğundan ehtiyat tədbirlərini görməzlikdən gəlsək, yenidən vəziyyət pisləşə bilər".

> "Bu barədə qərarı aidiyyəti qurumlar verəcək

"O ki qaldı toy və yas mərasimlərinin təşkilinə icazənin verilməsinə və bu mərasimlərim keçirilməsi formasına, ictimai nəqliyyatın tam açılmasına, deməliyəm ki, bu barədə qərarı müvafiq təhlillərdən sonra aidiyyəti qurumlar verəcəklər", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, indiki vəziyyətdə bu barədə qərar verilərsə, açıq havada, kütləvi toplaşma olmadan toy və yas mərasimlərini təşkil etmək olar:

"İnsanlarımız bundan sonra da ehtiyatı əldən verməməlidir. Əvvəllər toy mərasimlərində 400-500, hətta daha çox insan iştirak edirdi. Yas mərasimlərində də bəzən 200-300 insan olurdu. Hazırki vəziyyətdə bu qədər insanın bir yerə toplaşması çox təhlükəli şərait yarada bilər. Ona görə də, ən optimal variant kimi 50-70 nəfər arası mərasimlərin təşkili məqbul ola bilər. Amma bir daha qeyd edim ki, bu barədə qərarı aidiyyatı qurumlar verəcək".

Millət vəkili, həmçinin bir məqamı da diqqətə çatdırıb ki, hazırda insanlarımız daha çox vaksinasiyada iştirak haqqında da düşünməlidir: "Dövlət bu sahədə üzərinə düşən vəzifələri yerinə yetirir. Dünyanın bir çox ölkələrində hələ də vaksinasiya başlanmasa da, artıq Azərbaycanda bu proses yüksək səviyyədə təşkil olunub. Ona görə də vətəndaşlarımız da bu prosesdə aktiv iştirak etməli, özlərinin, ailələrinin, cəmiyyətimizin sağlamlığı naminə vaksinasiya olunmalıdır. Əgər vaksinasiya prosesində insanlarımızın böyük əksəriyyəti iştirak edərsə, virusa qarşı hər bir insanda immunitet formalaşarsa, o zaman məhdudiyyətlər də tezliklə aradan qalxar, normal həyat geri dönər".

*✍ Banu*

## Müzakirə

# Metroda gedişhaqqı



**Natiq Cəfərli,**
iqtisadçı ekspert

> "Yəni 1 dayanacaq getməklə 10-15 dayanacaq getmək eyni xərclə başa gəlməz"






**Aslan Əsədov,**
nəqliyyat üzrə ekspert

### Necə hesablanmalıdır...

***Son günlər sosial şəbəkələrdə Bakı Metropolitenində gedişhaqqının 97 qəpik - 1 manata qədər qaldırılacağı ilə bağlı çoxsaylı söz-söhbətlər dolaşır. Bəzi vətəndaşlar hesab edir ki, bu gün metropolitenin fəaliyyətinin dayandırılmasına əsas səbəb pandemiya yox, məhz elə gedişhaqqı məsələsidir. Müzakirələr vətəndaşlar arasında narahatlıq yaradıb və onların narazılığına səbəb olub. Bəs görəsən, sözügedən məsələ hazırkı vəziyyətdə nə dərəcədə realdır? Həqiqətənmi, metroda bir nəfərin gediş-gəlişi üçün maya dəyəri 30 qəpikdən çoxdur? Ümumiyyətlə, "maya dəyəri" anlayışı hansı əsaslarla hesablanır?***

**■ Hafta.az-ın əməkdaşı məsələ ilə bağlı olaraq mütəxəssislərə müraciət etdi. İlk olaraq suallarımızı iqtisadçı ekspert Natiq Cəfərli cavablandırdı. O bildirdi ki, birdən-birə metroda gedişhaqqının böyük məbləğlərdə artırılacağını güman etmir. Hər bir halda dəfələrlə metropoliten rəhbərliyi qiymətlə bağlı açıqlamalar verib və bu hal gözlənilməzdir:**

"Bundanöncəki rəhbərlik də 1 sərnişin üçün gedişhaqqının maya dəyərinin çox yüksək olduğunu söyləmişdi. Ona görə də fikrimcə, yaxın gələcəkdə metroda gedişhaqqının artırılması ilə bağlı qərar verilə bilər. Ehtimal kifayət qədər yüksəkdir. Məbləğin 50 qəpik civarında ola biləcəyini güman edirəm". Ekspert təəssüf hissi ilə söyləyir ki, maya dəyərinin necə hesablanması ilə bağlı heç bir məlumatı yoxdur. Onun nəyə əsasən götürülməsi ictimaiyyət üçün başdan-sona müəmmadır:

"Açığını desəm, bu mövzu mənimçün də maraqlıdır. Biz dəfələrlə metropoliten rəhbərliyinə rəsmi sual ünvanlamışıq ki, maya dəyərinin nə cür hesablandığı barədə ictimaiyyətə məlumat verilsin. Məntiq bunu deyir ki 1 sərnişinin daşınma qiymətinin maya dəyəri "Elmlər Akademiyası" stansiyasından "İnşaatçılar"a gedişi ilə, "Elmlər Akademiyası"ndan "Koroğlu"ya gedərki gedişə bərabər ola bilməz. Yəni 1 dayanacaq getməklə 10-15 dayanacaq getmək eyni xərclə başa gəlməz. Ona görə də yaxşı olardı ki, metropoliten rəhbərliyi maya dəyərinin əsaslandığı istiqamətlə bağlı ictimayəti bilgiləndirsin. Biz mütəxəssislər də öz hesablamalarımızı apara bilək. Gedişhaqqının maya dəyərinə metropoliten işçilərinin maaşı, elektrik enerjisi sərfiyyatı, təhlükəsizlik, təmir-tikinti məsələləri daxil olmalıdır.

Maraqlı məqam ondan ibarətdir ki, dövlət büdcəsindən hər il bura vəsait ayrılır. Həmçinin təmir-tikinti işləri, vaqonların alınması kimi məsələlər də dövlət hesabına başa gəlir. Ona görə də metropolitendə maya dəyəri anlayışı və onun hesablanması bugünkü reallığı əks etdirmir. Təəssüflər olsun ki, bunu sübut edəcək açıqlamalar və rəsmi məlumatlar yoxdur".

**■ Daha sonra nəqliyyat üzrə ekspert Aslan Əsədov da məsələyə münasibət bildirdi. Onun sözlərinə görə, hazırkı vəziyyətdə gedişhaqqının artırılması heç də real görünmür:**

"Bu gün daha çox danışılan mövzudan biri metroda qiymət artımının olacağı məsələsidir. Məncə, məsələ vətəndaşlar tərəfindən bir qədər düzgün anlaşılmayıb.

Bakı metrosu daha çox sosial və maddi cəhətdən həssas qrup vətəndaşlarımızın istifadə etdiyi nəqliyyat vasitəsidir. Burada dövlət qiymətləndirilməsi xüsusi nəzərə alınır. Daşınma xərcləri və sərfiyyat baxımından hesabladıqda müəyyən gəlirlərdə azalmalar pandemiya vaxtında qabarıq şəkildə görünə bilər. Sözügedən məbləğ trafiki ilə daşıma da bahalı sayılır. Fikrimcə, yaranmış fərqlər şəhərimizə daha çox turist axını və kütləvi tədbirlərin keçirilmə müddətində kompensasiya olunacaqdır. Yeri gəlmişkən "8 Noyabr" stansiyasının istismara verilməsi, digər stansiyaların təmirdən qayıtması və tikintisi aparılan xətlərin inkişafı növbəti illərdə Bakı metrosuna xüsusi rəng qatacaq".

> "Hazırkı vəziyyətdə gedişhaqqının artırılması heç də real görünmür"

Qeyd edək ki, "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəisi Bəxtiyar Məmmədov Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 1-dən Bakı metrosunda sərnişindaşımanın bərpa edilməsinə qərar verəcəyi təqdirdə, qərarın icrasında heç bir problemin olmadığını söyləyib. O həmçinin hazırda metronun "Elmlər Akademiyası" stansiyasında gedən təmir işlərinin də iyunun 1-nə qədər başa çatdırılacağını vurğulayıb.

*✍ Banu*

## SUAL-CAVAB

***Dövlət hesabına avtomobil almaq üçün növbədə dayanmış şəxs növbəsi barədə məlumatı necə əldə edə bilər?***

- Dövlət hesabına minik avtomobili almaq üçün növbədə dayanmış şəxslərin adlı siyahısını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytından izləmək mümkündür.

- Vətəndaşlığı olmayan şəxslə əmək müqaviləsi bağlanılarkən ondan əmək kitabçası tələb edilməlidirmi?

- Mövcud qanunvericiliyə əsasən, bu kateqoriyaya daxil olan şəxsdən əmək kitabçası tələb olunmamalıdır. Ümumiyyətlə isə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 48.3-cü maddəsinə əsasən, məcburi köçkün, onlara bərabər tutulan şəxs və ya qaçqın statusu olan, habelə Azərbaycan Respublikasında ilk dəfə əmək fəaliyyətinə başlayan işçilərlə, əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə əmək kitabçası təqdim edilmədən əmək müqaviləsi bağlanıla bilər.

***VÖEN itibrsə, təkrar əldə etmək üçün hansı prosedur tələb olunur?***

- Vergi uçotu haqqında şəhadətnamə itirildikdə və ya yararsız hala düşdükdə fiziki şəxsin sərbəst formada müraciəti əsasında sənədlər daxil olduğu gündən 2 gün müddətində şəhadətnamənin yeni nüsxəsi verilir. Müraciəti elektron kabinetiniz vasitəsilə və ya onlayn növbə tutmaqla, vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla təqdim edə bilərsiniz.

***İşçilərin attestasiyası hansı qaydada həyata keçirilir?***

- İşçilərin peşəkarlıq səviyyəsinin yoxlanılması, ixtisasına, sənətinə müvafiq olaraq onların tutduğu vəzifəyə uyğun olduğunu aşkara çıxarmaq məqsədi ilə bu Əmək Məcəlləsinin 66-cı maddəsində göstərilən işçilər istisna olunmaqla qalan bütün işçilərin attestasiyası keçirilə bilər. İşəgötürənin əmri ilə işçilərin attestasiyasının keçirilməsi üçün təcrübəli, yüksək peşəkarlıq qabiliyyətinə malik, obyektivliyi və qərəzsizliyi ilə seçilən nüfuzlu şəxslərdən, habelə həmkarlar ittifaqları təşkilatının nümayəndəsindən ibarət attestasiya komissiyası yaradılır. İşəgötürən, işçinin müvafiq iş yeri üzrə rəhbəri attestasiya komissiyasının üzvü ola bilməz. Attestasiya komissiyası azı beş nəfərdən ibarət olmaqla bütün hallarda onun say tərkibi təkrəqəmli olmalıdır. Attestasiya komissiyasının səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir.Attestasiya komissiyasının üzvləri tərəfindən işçiyə yalnız tutduğu vəzifəyə, əmək funksiyasına, ixtisasına dair, yerinə yetirdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə uyğunluğunu müəyyən etmək üçün zəruri olan əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, vəzifələri dairəsinə aid olan məsələlərlə əlaqədar suallar verilə bilər. Attestasiya olunan işçinin siyasi baxışlarına, mənəvi, əxlaqi kamilliyinə, şəxsiyyətinə, etiqadına və digər sırf şəxsi dəyərlərinə görə, o cümlədən onun intizamlılıq dərəcəsinə görə peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi yolverilməzdir.

***Əmlak vərəsəlik şəhadətnaməsi əsasında vərəsələrə verilib. Əgər əmlak üçün paylı mulkiyyət kimi iki cıxarış alınıbsa, tərəflər alğı-satqı zamanı torpaq vergisi ödənilməlidirmi?***

- Vergi qanunvericiliyinin müddəalarına əsasən fiziki şəxs tərəfindən torpaq sahəsi və üzərindəki fərdi yaşayış evinin təqdim edilməsi zamanı ödəmə mənbəyində sadələşdirilmiş vergi notarius tərəfindən həmin əmlakları təqdim edən şəxsdən tutularaq dövlət büdcəsinə ödənilir. Fiziki şəxsin 3 ildən az müddətə qeydiyyatda olduğu yaşayış sahəsinin təqdim edilməsi zamanı alğı-satqı müqaviləsini təsdiq edən notarius tərəfindən ödəmə mənbəyində Vergi Məcəlləsinin 220.8-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi tutularaq dövlət büdcəsinə ödənilməlidir. Yaşayış evini satan şəxs 3 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu halda həmin yaşayış evinin satışı sadələşdirilmiş vergidən azaddır. Bunlardan əlavə fiziki şəxs tərəfindən torpaq sahəsinin təqdim edilməsi zamanı notarius tərəfindən fərdi yaşayış evlərinin yerləşdiyi həyətyanı torpaq sahələrinin hər kvadrat metri üçün 0,5 manat məbləğinə torpaq sahəsinin yerləşdiyi ərazidən asılı olaraq Məcəllənin 220.8-ci maddəsi ilə müəyyən edilmiş əmsallar tətbiq edilməklə ödəmə mənbəyində sadələşdirilmiş vergi tutulur. Digər tərəfdən yaşayış evinin və torpaq sahəsinin ailə üzvünə hədiyyə verilməsi (bağışlanması) vergidən azaddır. Vergi ödəyicisinin ailə üzvlərinin siyahısı Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində göstərilir.

Vergi Məcəlləsinin 220.8-ci maddəsinin müddəalarına əsasən yaşayış və ya torpaq sahələrinin təqdim edilməsi zamanı notarius tərəfindən sadələşdirilmiş vergi təqdim edilən yaşayış sahəsinin hər kvadrat metri üçün 15 manat, Vergi Məcəlləsinin 206.3-cü maddəsində nəzərdə tutulmuş torpaq sahələrinin isə hər kvadrat metri üçün 0,5 manat məbləğinə yaşayış və ya torpaq sahəsinin yerləşdiyi ərazidən asılı olaraq Məcəllənin 220.8-ci maddəsi ilə müəyyən edilmiş əmsallar tətbiq edilməklə hesablanır.

*✍ Sevinc*

Eurovision-2021

# Hollandlar öz mahnılarını da bəyənmir...

***Bu günlərdə Hollandiyada Eurovision musiqi yarışması keçirilir. Bütün Avropa kimi yüzminlərlə Azərbaycan vətəndaşı da bu yarışmaya böyük maraq göstərir. İştirakçımız Samirə Əfəndinin yarımfinaldakı çıxışı, final mərhələsində iştirak etmək hüququ qazanması isə xüsusi qeyd olunmalıdır. Bu dəfə təmsilçimizin iştirakı və avropalıların ölkəmizə münasibəti barədə daha ətraflı məlumatlar əldə etmək üçün Hollandiyada yaşayan diaspor fəalımız, "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyeva ilə söhbətləşdik. Müsahibəmiz maraqlı alındı. Buyurun, siz də oxuyun:***





Mayisə Ağamirzəyeva,
"Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri

- Mən özüm də burada xəstəxanada işləyirəm. Təbii ki, Hollandiyada da koronavirusla bağlı müəyyən qaydalar var. Konkret olaraq Eurovision müsabiqəsini izləmək üçün konsert salonunda olan tamaşaçılara gəldikdə isə, onların hamısından öncədən test götürülüb. Konsert salonunda birinci yarımfinal zamanı 360 nəfər tamaşaçı olub.

Dünəndən etibarən Hollandiyada tətbiq edilən karantin qaydalarında müəyyən yumşalmalara gedilib. Açıq havada fəaliyyət göstərən kafelərin iş saatı 6-dan 10-a kimi uzadılıb. Hollandiyada karantin qaydalarına ciddi riayət olunur. Məsələn, hələ də ictimai nəqliyyatda tibbi maskalar taxılır. Xəstəxanada biz pasiyentlərlə eyni girişləri istifadə etmirik. Marketlərə əvvəl onlayn icazə ilə gedirdik. İndi onlayn icazə olmasa da, marketlərə gedərkən növbəyə dururuq. İçəriyə müəyyən sayda müştəri buraxılır.

***- Peyvəndləmə ilə bağlı vəziyyət necədir?***

- Mən özüm də peyvənd olunmuşam. Proses davam edir. Tibb işçisi olduğum üçün xəstəxana tərəfindən çağrıldım peyvənd edildim. Burada da müxtəlif peyvəndlərdən istifadə olunur. Məsələn, mənə vurulan birdozalıq, həyat yoldaşıma vurulan peyvənd isə iki dozalıq idi. Daha çox diqqət səhiyyə, insanlarla birbaşa təmasda olan sahələrdə çalışan işçilərə, 60 yaşdan yuxarı vətəndaşlara diqqət ayrılır.

***- Azərbaycanın "Eurovision" təmsilçisi Samirə Əfəndinin yarımfinaldakı çıxışını necə qarşıladı Hollandiyadakı soydaşlarımız? Necə dəstək ola bildiniz?***

- Burada yaşayan azərbaycanlılar ölkəmizin təmsilçisi üçün xeyli fəallıq göstərdik. Sosial şəbəkələr vasitəsilə əksəriyyət dəstək çağırışları etdi. Karantin şərtləri səbəbindən Azərbaycan təmsilçiləri ilə görüşə bilməsək də, əlaqə saxlayıb onlara dəstəyimizi və sevgimizi bildirdik. Onların qaldıqları otel şəhərin mərkəzində də yox, kənardadır. Yanında sadəcə park var. Oraya düşə bilirlər. Bildiyiniz kimi, təmsilçimiz ilk yarımfinalda 4-cü yeri tutmaqla finala yüksəldi. Hollandiyada, həmçinin digər ətraf ölkələrdə də azərbaycanlılar çoxdur. Bu dəstəyi lazımınca verə bildiyimiz qənaətindəyəm. Öz aramızda danışarkən deyirik ki, mahnımızı da çox bəyənirik. Milli musiqimizdən, yallı rəqsinin elementlərindən istifadə çox yaxşı idi. İş yoldaşım olan hollandlar belə, çox maraqla qarşılayıblar mahnımızı. Bildiyiniz kimi, Mata Hari həm də Hollandiya ilə bağlılığı olan bir xanımdır. Yerli sakinlər də deyirlər ki, Azərbaycan bu xanımı mahnının əsas qəhrəmanı etməklə, həm də yarışın burada keçirilməsini nəzərə alaraq, Hollandiyaya düşünülmüş və çox yaxşı jest edib. Finalda necə olacağını isə bilmirik. Müharibə başlayandan sonra Hollandiya təktərəfli çıxışları ilə yadda qalıb. Azərbaycana qarşı hansısa siyasi bəyanat vermək üçün bir bəhanə axtarırlar. Çalışırıq, imkanlarımız daxilində cavablarını verək. Buradakı insanlarımızın dəstəyi və fəallığı nəticəsində də finalda yaxşı nəticə göstərəcəyimizə inanırıq. Hollandlar öz ifaçılarının mahnılarını belə bəyənməmişdilər.

> "
> *Burada yaşayan azərbaycanlılar ölkəmizin təmsilçisi üçün xeyli fəallıq göstərdik*

***- Hollandiyanın son dönəmlər bizə olan münasibətdə birtərəfli yanaşma ortaya qoyduğunu dediniz. Bu il Ermənistan təmsilçisi "Eurovision"a qatılmayıb. Bu amil orada necə hiss edilir?***

- Ermənistanın yarışmada iştirak edib-etməməsi onlar üçün o qədər də fərq etmir. Hollandiyada sadə insanlar üçün fərq etmir. Kimsə xaricdən gəlib burada dil öyrənirsə, cəmiyyətə tez alışırsa, ən çox bunu dəyərləndirirlər. Birtərəfli yanaşma ilə bağlı dediklərimiz daha çox siyasi oyunlarla bağlıdır. Sadə vətəndaşların düşüncəsində Ermənistana kasıb dövlət, ermənilərə isə yazıq xalq kimi baxırlar. Ermənilər özlərini bu cür qələmə verərək dəstək almağa çalışırlar. Müharibə dövründə çox kampaniyalar təşkil etdilər. Burada bir erməni həm də erməni lobbisinin təmsilçisidir, müharibənin gedişi zamanı teleefirlərdən düşmədi, hətta bir kitab da yazdı. Verilişlərdə Ermənistanda pandemiya zamanı xəstəxanaların çatışmadığı, müharibənin onlara çox mənfi təsir etdiyi və digər amillər göstərilərək, kasıb ölkə kimi təqdim olundu. Məqsəd maddi və siyasi dəstək almaq idi, təbii ki...

***- Hollandiyadakı ermənilər müsabiqə ərəfəsində və ya bu günlərdə iştirakçılarımıza, orada yaşayan soydaşlarımıza qarşı hansısa təxribatlara yol veriblərmi?***

- Yox, sadəcə bir neçə gün əvvəl Lüksemburqda müəyyən olaylar yaşandı. Burada sakitlikdir. İştirakçılarımız qaldıqları oteldən bayıra çıxmırlar. İstəsələr də bu təxribatı törədə bilməzlər. Bütün yarışmaçıların məsuliyyəti Hollandiyanın böyük telekanalının üzərindədir. Oteldə qaldıqları mərtəbədə sadəcə Azərbaycan qrupunun təmsilçiləri yaşayır. Digər ölkələrin təmsilçiləri belə yoxdur.

***- Müharibənin başa çatmasından 6 aydan çox vaxt keçir. Həmin dövrlə indiki zamanı müqayisə etsək, Avropadakı ermənilərlə azərbaycanlıların durumunda hansı fərqlər var?***

- Müharibə dövründə biz çox fəal olmuşuq. Sosial şəbəkələr və imkanlarımız daxilində apardığımız kampaniyaya görə, hətta məni işlədiyim xəstəxananın rəhbərliyinə belə şikayət etmişdilər. Bir müddət bu cür qarşıdurmalar yaşandı. Mesencerlə təhqir mesajları belə alırdıq. Hollandiyanın türkəsilli deputatına ASALA adından təhdid mesajı göndərmişdilər. İndi vəziyyət bir qədər sakitdir, susurlar.

***- Bu günlərdə Avropa Parlamentində yenidən Azərbaycan və Ermənistana münasibətdə ikili yanaşma nümayiş etdirildi. Azərbaycandan "hərbi əsirlər"in qaytarılması tələb edilsə də, Ermənistandan mina xəritələrinin verilməsinə dair heç bir çağırış olmadı. Niyə bizə qarşı bu cür münasibət sərgilənir?***

- Müharibə dövründə Avropa parlamenti tərəfindən Türkiyəyə qarşı məhz Azərbaycana hərtərəfli dəstə verdiyi üçün sanksiyaların tətbiq etdilər. Azərbaycana münasibətdə də eyni mövqe sərgiləmək istəsələr də, bu alınmadı. Bunların yanaşması budur. Biz Avropada yaşayan azərbaycanlılar olaraq fəallıq göstərməli, bəyanatlar, müraciətlərlə haqq səsizimi çatdırmaqda davam etməliyik. Bir məqam da nəzərə alınmalıdır ki, azərbaycanlılar olaraq biz Avropada yeniyik. Ermənilər isə yüz ildən artıqdır ki, burada kök salıblar. Toplu yaşadıqları şəhərlər var. Azərbaycanlıların Hollandiyaya axını 1999-cu ildən başlayıb. Biz burada daimi yaşadığımız üçün ermənilərə cavabımızı bu topluma daha sıx inteqrasiya edən, öz yerlərini tapa bilən gənc nəsil yetişdirməklə verəcəyik. Bu gənc nəsil yetişir. Onların səsi daha güclü çıxacaq.

✍ *Azad Əliyev*

## HƏFTƏ REYTİNQ

### Həftənin ŞÖHRƏTLİSİ



Prezident İlham Əliyev S.X.Rüstəmxanlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Xudu oğlu Rüstəmxanlı "Şöhrət" ordeni ilə təltif edilir.

### Həftənin XƏSTƏSİ



Koronavirusa yoluxan Klasssik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunun müalicəsini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Partiya sədrinin vəziyyətinin yaxşı olmadığı barədə dostları paylaşım etmişdi. Eyni zamanda, onun ailə üzvlərinin də virusdan əziyyət çəkdiyi qeyd olunurdu.

### Həftənin GÖRÜŞÜ



Rusiya xarici işlər naziri Sergey Lavrovla ABŞ dövlət katibi Entoni Blinkenin ilk tet-a-tet görüşü keçirilib. XİN başçılarının ilk görüşü Arktika Şurasının Nazirlər Sessiyası çərçivəsində keçirilib. Lavrov danışıqların əvvəlində həmkarına görüşün keçirilməsini təklif etdiyinə görə təşəkkürünü bildirib. "Ən önəmlisi ondan ibarətdir ki, biz diplomatik imkanlardan maksimum dərəcədə istifadə etməyə çalışaq və mən sizin məhz belə əhval-ruhiyyə nümayiş etdirməyinizi çox qiymətləndirirəm", - Lavrov deyib.

### Həftənin DAVASI



Dmanisi şəhərinin "9 aprel" küçəsi, 23-də yerləşən "Ömər" marketə kütləvi hücum oldu. Mağaza sahibi Qəşəm Şamilovun sözlərinə görə, hücumu həyata keçirənlər Dmanisidə yaşayan bir qrup svan (gürcü) əsilli şəxslərdir. Q.Şamilov hücum edən şəxslərin artıq bir neçə dəfə mağazaya gələrək, aldıqları məhsulun pulunu verməyəcəklərini dediklərini bildirib. Onun sözlərinə görə, bir qrup svan (gürcü) əsilli şəxs mağazanın önünə gələrək, qarşısında duran gəncləri və mağaza sahiblərini döyməyə çalışıblar. Sonda tərəflər arasında barışıq əldə edilib.

### Həftənin GÖZƏLİ



Meksika təmsilçisi Andrea Mesa bu il keçirilən "Dünya gözəli" gözəllik müsabiqəsinin qalibi olub. Brilliant tacı 2019-cu ilin yarışmasının qalibi, CAR-dan olan model Zozibini Tunsi ona təqdim edib. Mesa proqramçı olaraq çalışır, Çiuaua ştatında turizmi dəstəkləyir və gender zorakılığına qarşı mübarizə aparır.

### Həftənin ÇEMPİONU



Futbol üzrə Azərbaycan Premyer Liqasında 2020/21 mövsümünə yekun vurulub. Turun, eləcə də mövsümün qapanış matçı lider "Qarabağ"la əzəli rəqibi və əsas izləyicisi "Neftçi" arasında baş tutub. Mövsümün çempionunu müəyyənləşdirən Azərbaycan derbisində ağdamlılara heç-heçə də bəs edirdi. Paytaxt təmsilçisi isə çempion olmaq üçün "Qarabağ"ı mütləq məğlub yola salmalıydı. "Qızıl oyun"un taleyini 90-cı dəqiqədə Ahmed Ahmedovun vurduğu yeganə qol həll edib. "Neftçi" bu qələbə sayəsində uzun fasilədən sonra Azərbaycan çempionu olub.

### Həftənin AŞİQİ



"Avroviziya-2021" mahnı müsabiqəsində ölkəmizi təmsil edən Samira Əfəndi yarışamda özünə sevgili tapıb. Norveçli ifaçı Samiranın önündə diz çökərək ona eşq elan edib. Bu anlar kameralara həkk olunub və sosial şəbəkədə geniş paylaşılıb.

✍ *Azad Əliyev*



# İpoteka ilə bağlı qanunvericiliyə dəyişiklik edilir

**Milli Məclisin iclasında "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələ müzakirəyə çıxarılıb. Dəyişiklik layihəsinə əsasən, qanuna yeni 43.7-1-ci maddə əlavə olunur.**

Həmin maddəyə görə, təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində müqavilə qüvvəsinə malik olan protokol imzalayacaqlar. Bununla yanaşı, ipoteka ilə bağlı Vergi Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişikliklər təklif edilir.

İrəli sürülən dəyişikliklərdə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı mülkiyyət hüququnun rəsmiləşdirilməsinin və əldə edilmiş əmlakın satışı zamanı əsas borc həcmində dövriyyənin vergidən azad olunmasının qanunvericiliklə dəqiq tənzimlənməsi nəzərdə tutulub. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

## GÜNÜN FOTOSU



İctimai çimərliklərdə yay mövsümünə hazırlıq başa çatıb...

"

# Metroda gedişhaqqı

**Natiq Cəfərli,**
iqtisadçı ekspert

Yəni 1 dayanacaq getməklə 10-15 dayanacaq getmək eyni xərclə başa gəlməz.

Səh. 7

## STATİSTİKA



- Filin ürəyinin çəkisi 25-30 kiloqrama çatır. Onun ürək döyüntüləri iki saniyədə bir dəfə atır.
- Fillər sutkanın 20 saatını qida axtarmağa sərf edir.
- Böyük fillər gün ərzində 150-200 litr su içir.
- Fillər orta hesabla 50 il yaşayır. Lin Van adlı dünyanın ən uzunömürlü fili 86 il yaşayıb.



Səh. 5

# Dövlət Film Fondunun bugünü...